Bu bir xalq qəzetidi
ƏDALƏT

## Bu pensiyaçılara əlavə pul veriləcək

**Ötən illərdə düzgün hesablanmadan aşağı məbləğdə təyin olunmuş pensiyalar müəyyən edilərək artırılıb.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən Adalet.az-a verilən məlumata görə, artım keçən il və bu ilin ilk rübündə 12 809 şəxsi əhatə edib.

Dövlət Sosial Müdafiə Fondu ötən illərdə təyin olunmuş pensiyaların məbləğlərinin qanunvericiliyin tələblərinə uyğunluğunun araşdırılmasını davam etdirir.

Araşdırmalar nəticəsində 12809 şəxsin pensiya məbləğlərinin qanunvericilikdə nəzərdə tutulandan aşağı məbləğdə hesablandığı müəyyən edilib. Beləliklə, sosial ədalətin təmin edilməsi məqsədilə həmin şəxslərin pensiya məbləğləri qanunauyğun şəkildə yenidən hesablanaraq artırılıb.

Artımlar onlara pensiya hüquqlarının yarandığı tarixdən və ya qanunvericiliyin tələbinə uyğun hallarda əvvəlki üç il üçün hesablanaraq verilib. Həmin artımların təmin edilməsi üçün əlavə olaraq illik 8 milyon manat vəsait ayrılıb. Bundan başqa, keçmiş dövr üzrə ödənilməli olan 14,5 milyon manat fərq hesablanaraq aylıq pensiya məbləğlərinin üzərinə əlavə edilməklə hissə-hissə ödənilir.

Beləliklə, həmin şəxslərə pensiya ödənişi müddətində əlavə olaraq 80 milyon manatdan çox vəsait ödənəcək.

**Hazırda da bu tipli araşdırmalar davam etdirilir.**

## Ərdoğan Kral Salmanla ikitərəfli münasibətləri müzakirə edib



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud arasında telefon danışığı olub.**

**Adalet.az-ın məlumatına görə, bu barədə Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr İdarəsindən bildiriblər.**

**Məlumata əsasən, telefon danışığı zamanı tərəflər ikitərəfli münasibətləri müzakirə ediblər.**

## Türkiyənin Azərbaycandakı səfiri Hərbi Qənimətlər Parkında olub



*Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı Hərbi Qənimətlər Parkında olub. Bu barədə diplomat özünün "Twitter" səhifəsində məlumat verib. "Dünən Qafqaz İslam Ordusu, Xocalı və Qarabağ şəhidlərimizin mənəvi huzurunda idik.*

*Bugün isə Qarabağın erməni işgalından azad edilməsindən sonra yaradılan Hərbi Qənimətlər Parkındayıq.*

*Zəfəriniz mübarək olsun, qardaşım", - deyə səfir qeyd edib.*

## Karantin rejimini pozan idman zalı aşkarlandı




**Karantin rejimi qaydalarını pozan idman zalı aşkar edilib.**

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, Binəqədi Rayon Polis İdarəsinin 7-ci Polis Bölməsinin əməkdaşları tərəfindən xüsusi karantin rejimi ilə əlaqədar keçirilən nəzarət tədbirləri zamanı fəaliyyətinə icazə verilməyən idman zalı aşkar edilib.

Keçirilən nəzarət-profilaktik tədbirlər zamanı 9-cu mikrorayon M.Cəlal küçəsində yerləşən "Sparta" idman zalının xüsusi karantin rejiminin tələblərini pozaraq gizli fəaliyyət göstərməsi müəyyən edilib. Ümumilikdə xüsusi karantin rejimi qaydalarının tələblərinə əməl etməyən 13 nəfər aşkar edilib. Karantin rejiminin tələblərini pozduqlarına görə İnzibati Xətalar Məcəlləsinə müvafiq olaraq obyektin icarədarı 4000 manat, digərləri barəsində isə 200 manat inzibati tənbeh tədbirləri tətbiq olunub.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

## HİDAYƏT ELVÜSAL ÜSYAN ETDİ

Bax:səh-3

## Naxçıvanda "ASAN xidmət"ə direktor təyin edildi




***Muxtar Respublikasının Nazirlər Kabineti yanında "ASAN xidmət" Mərkəzinə direktor təyin edilib. Adalet.az xəbər verir ki, bununla bağlı Muxtar Respublikanın Ali Məclisinin Sədri Vasif Talıbov sərəncam imzalayıb. Sərəncama əsasən, bu vəzifəyə Tural Akim oğlu Əliyev təyinat alıb.***

***Qeyd edək ki, Tural Əliyev bundan əvvəl Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində Ümumi şöbənin müdiri vəzifəsində çalışıb.***

## "Space" kanalına yeni rəhbər təyin olunub



**"Space" teleradio şirkətinə yeni rəhbər təyin olunub. Adalet.az-ın məlumatına görə, kanala rəhbər vəzifəsi Ülviyyə Mikayılovaya tapşırılıb.**

Qeyd edək ki, Ü.Mikayılova 1959-cu ildə anadan olub. O, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, Müasir Təhsil və Tədrisə Yardım İctimai Birliyinin rəhbəridir.

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 49 (5881) 6 may 2021-ci il | Qiyməti 30 qəpik

## DİN müğənni Aslanın ölümü ilə bağlı məlumat yayıb



**Ötən gün avtomobil qəzasında həlak olan müğənni Aslan Hüseynovun ölümü barədə Daxili İşlər Nazirliyi məlumat yayıb.**

Nazirlikdən Adalet.az-a verilən məlumatda deyilir ki, mayın 4-də saat 5 radələrində Bakı-Qazax yolunun Ələt qəsəbəsi ərazisində qəza baş verib.

Hadisədə Bakı şəhər sakini Aslan Hüseynov (müğənni) idarə etdiyi "BMW" markalı avtomobili qarşıda gedən paytaxt sakini G.Bəşirovun idarə etdiyi "KamAZ" markalı yük avtomobilinə vurub.

Nəticədə A.Hüseynov aldığı xəsarətlərdən hadisə yerində ölüb.

Hadisə ilə bağlı Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.

# Polis narkobaronlara qarşı əməliyyat keçirdi



Bax:səh-2

## Azərbaycanda 7 mindən artıq saxta əlillik dərəcəsi ləğv edilib

**Son illərdə vətəndaşlar arasında 7000-dən çox saxta əlillik təyinatı aşkarlanaraq ləğv edilib.**

Adalet.az-ın məlumatına görə, bunu Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədri Cavid Əbdulqədirov deyib.

O bildirib ki, nəticədə illik 30 milyon, aktuar hesablamalara əsasən uzunmüddətli dövr üzrə isə 735 milyon manatdan çox büdcə vəsaitinin qanunsuz xərclənməsinin qarşısı alınıb: "Nazirlər Kabinetinin 30 dekabr 2015-ci il tarixli qərarı ilə ölkə üzrə qüvvədə olan müddətli əlillik işləri hər hansı yoxlama olmadan, müayinələr aparılmadan avtomatik olaraq 5 il müddətinə uzadılıb. Bu qərar 190 min şəxsi əhatə edib. Bu zaman həqiqi əlilliyi olan şəxslərlə yanaşı, artıq sağalmış və ya reabilitasiya olunmuş, habelə saxta yollarla əlillik əldə etmiş minlərlə şəxsin də əlillik müddəti uzadılıb. Hazırda əlillik müddətləri bitən şəxslərin əlilliyinin yenidən qiymətləndirilməsi işləri aparılır və bu sahədə ən vacib prinsip əlillik dərəcələrinin həqiqətən əlilliyi olanlara təyin olunması, saxta əlilliyin isə aşkar edilərək ləğv edilməsidir. Əsassız, saxta əlillik təyinatının aşkar edilərək ləğv olunması, əlillik təyinatlarının tam şəffaflaşdırılması sosial ədalətliliyin də vacib şərtidir və bu istiqamətdə işlər davam edəcək".

<u>*Yılmaz Özdil*</u>

## Vətəndaş qəzetçiliyi

Bax:səh-3

## Hidayət Elvüsal İsgəndər Həmidovla Xanım dərəsində



*Müharibənin ilk illərində, ilk günlərində klavyatura arxssında yox, Xanım dərəsində, İsgəndərlə çiyin-çiyinə idik.*

*Vətən sevgisi söz yox, əməli işdir.*

*Elə belə xatırlatdım. O zaman bizi az qala dar ağacından asmaq istəyənlər və o günlərdən xəbərsizlər üçün.*

## HEÇ OLMASA KƏLBƏCƏRİN AZADLIĞINI GÖRDÜ







**Kəlbəcərin ağbirçəklərindən biri idi. Çox xeyirxah, gözəl insan idi. Nə qədər yetim-yesirə əl tutmuşdu, böyütmüşdü, ali təhsl vermişdi, ərə gedən qızlara cehiz hədiyyə etmişdi.**

Sağlığında dörd igid qardaş dağı görmüşdü: Nofəl Həmidov, Sərdar Həmidov, İsgəndər Həmidov və Zakir Məmmədov.

Birinci Qarabağ savaşında ermənilər Tərtəri işğal edə bilmədilərsə, bu, İsgəndər Həmidovla Sərdar Həmidovun qəhrəmanlıqları hesabınadı. Həmin vaxt Ağdərənin işğaldan azad olunmasında da bu iki qardaşın çox böyük əməyi vardı.

Bəli, Kəlbəcərin bir ağbirçəyi də azaldı. Söhbət Ulduz xanımdan gedir. Təsəlli odur ki, heç olmazsa Kəlbəcərin müzəffər ordumuz tərəfindən azad olunmasını gördü. Düzdür, Kəlbəcərə, Bağlıpəyəyə getməyə vaxtı çatmasa da indi ruhu cənnətdədi. Mən o dünyadakı cənnətdən danışmıram, bu dünyadakı cənnətdən danışıram - Kəlbəcərdən danışıram, Dəlidağdan, Xanımdərəsindən, Yüzbulaqdan, İstisudan, Keti-Meti dağından danışıram.

**İndi Ulduz xala qardaşlarını da yığıb başına və xoşbəxtdi.**

**Aqil ABBAS**

## Sülhməramlıların xəritə, şəhərcik, humanitar yardım, zəvvar oyunları: MƏQSƏD...

Bax:səh-3

## Fikrət Qoca vəfat edib



**Xalq şairi Fikrət Qoca 85 yaşında vəfat edib.**

**Qeyd edək ki, Fikrət Qoca 1935-ci il avqustun 25-də Ağdaş rayonunun Kotanarx kəndində anadan olmuşdur. 1964-cü ildə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunu bitirib.**

**Əsərləri 1956-cı ildən mətbuatda çap edilib. 1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin birinci katibi idi.**

**Allah rəhmət eləsin!**

## Qarabağdakı sülhməramlıların komandanı Qarabağdan geri çağırılacaq?

**Qarabağdakı Rusiya sülhməramlılarının komandanı Rüstəm Muradovun mayın 13-də altı aylıq əmək müqaviləsinin müddəti başa çatır.**

Bu barədə Ermənistanın "Joxovurd" nəşri məlumat yayıb.

Bu, o deməkdir ki, yaxın vaxtlarda general Rüstəm Muradovu başqa bir rusiyalı hərbçi əvəz edə bilər.

Məsələ burasındadır ki, müqaviləyə əsasən hərbi rəhbərlik Muradovu altı aydan sonra dəyişə bilər, lakin nəşrə danışan rusiyalı hərbi ekspert Vladimir Yevseyev rotasiyanın məcburi şərt olmadığını bildirib.(oxu.az)

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

## ŞƏHİDLƏRİN RUHU AĞAC OLUB ÇİÇƏKLƏYİR



**Bu alma ağacını aprelin 15-də qəzetimizin əməkdaşı Nicat Novruzoğlu Ağdam məscidinin önündə əkib. 20 gün öncə. Və gördüyünüz kimi, ağac həm yarpaqlayıb, həm də tumurcuqlayıb.**

**Budur Qarabağ torpağı. Budur Qarabağ torpağının bərəkəti, qeyri-adiliyi.**

**Uşaq vaxtı bu torpaqdan yemişəm. Bir yerimiz qanayanda bu torpağı qoyardıq yaramızın üstünə, qan kəsərdi.**

**Ağdama birinci səfərimdə məhləmizdəki torpaqdan bir çimdik götürüb yedim, dedim görüm dadı qaçmayıb ki? Uşaq vaxtı yediyim həmin torpaq idi, dadı-tamı da öz yerində.**

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ

Qarınqulu ehsanda o qədər yeyir ki, tərpənə bilmir.

Qonşuları bunu araba ilə evinə aparmalı olurlar.

Qarınqulu gözünü açıb göydə ulduzları görür və arabaçıdan soruşur:



**-Orada nə yığıncaqdır?**

Arabaçı deyir:

**-Orada da ehsan verilir.**

Qarınqulu:

**-Onda arabanı ora sür.**

# Prezident İlham Əliyev Gürcüstanın Baş nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini qəbul edib.**

**Adalet.az xəbər verir ki, Gürcüstanın Baş nazirini salamlayan Prezident İlham Əliyev dedi:**

- Cənab Baş nazir, Azərbaycana xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Əminəm ki, səfər çox uğurlu olacaq və bizim qardaşlıq münasibətlərimizi gücləndirəcək. Xalqlarımız arasında münasibətlər uzun tarixə əsaslanır, əsrlər boyu davam edən yaxşı qonşuluq və dostluq tarixinə əsaslanır. Hesab edirəm ki, bu, böyük dinamikanı nümayiş etdirən və faktiki olaraq bir çox sahələri əhatə edən cari münasibətlərimizin inkişafı üçün çox yaxşı zəmindir. Çox şadam ki, bizi ziyarət edirsiniz. Sizə möhkəm can sağlığı arzulayıram. Bilirəm ki, bu yaxınlarda koronavirusa yoluxmuşdunuz. Çox şadam ki, tamamilə sağalmısınız. Bu, sizin Azərbaycana səfərinizin bir az təxirə salınmasının səbəbi idi.

Bizim enerji və nəqliyyat layihələri kimi birgə layihələrin icrası üzrə yaxşı tariximiz var. Bu layihələr regionun siyasi, iqtisadi, nəqliyyat və energetika xəritəsini dəyişmişdir. Ölkələrimiz arasında güclü tərəfdaşlıq olmasaydı, bu layihələrin icrası mümkün olmazdı. Ötən ilin sonuncu günü Cənub Qaz Dəhlizi layihəsinin icrasının sonuncu günü idi. Bu layihə təkcə Cənubi Qafqaz regionunda yox, daha geniş Avrasiya regionunda ümumi inkişaf, sabitlik, proqnozlaşdırma, əməkdaşlıq üçün mühüm əhəmiyyət kəsb edir. Bir daha qeyd edirəm, bizim əməkdaşlığımız olmasaydı bu, mümkün olmazdı. Buna görə, bu vacib layihənin icrasına davamlı dəstək göstərdiyinə görə Gürcüstan hökumətinə dərindən minnətdaram. Bizim birlikdə start verdiyimiz bütün digər təşəbbüslərin də yaxşı uğur hekayəsi var. Əminəm ki, gələcəkdə də belə olacaq.

Mən indicə bəzi məlumatlara baxdım və gördüm ki, Azərbaycan Gürcüstan iqtisadiyyatında ən böyük investorlardan biri olmağa davam edir. Bu da, həmçinin çox müsbət və əlverişli investisiya mühitinin yaradılmasında sizin hökumətinizin həyata keçirdiyi islahatların yaxşı göstəricisidir. Bilirəm ki, daha da çox Azərbaycan şirkəti sizin ölkənizdə çalışmaq istəyir və əminəm ki, bu, baş verəcək. Bu gün biz əlbəttə ki, nail olduqlarımızı nəzərdən keçirəcəyik və gələcək addımlarımızı planlaşdıracağıq. Sizə ən xoş arzularımı çatdırıram. Bir daha xoş gəlmisiniz.

**Baş nazir İrakli Qaribaşvili dedi:**

- Cənab Prezident, məni qəbul etdiyinizə görə təşəkkür edirəm. Sizinlə yenidən Bakıda görüşmək böyük məmnuniyyət və şərəfdir. Qeyd etdiyiniz kimi, biz səfərimizi mənim koronavirusa yoluxmağım səbəbindən təxirə salmaq məcburiyyətində olduq. Lakin şadam ki, bu gün Bakıdayıq. Siz qeyd etdiniz ki, bizim mükəmməl münasibətlərimiz var və münasibətlərimiz əsrlər boyu davam edir. Mən Sizin atanızın vaxtilə Tbilisidə dediyi sözləri təkrar etmək istəyirəm - tale belə müəyyənləşdirib və bəxtimiz gətirib ki, biz qonşuyuq, gürcü və Azərbaycan xalqları qonşudurlar. Bu, bizim taleyimizdir. Biz bir-birimizə çox bağlıyıq və qarşılıqlı əlaqədəyik. Qeyd etdiyiniz kimi, biz birlikdə bəzi ən mühüm əhəmiyyət kəsb edən tarixi layihələri icra etmişik.

Ona görə də, biz münasibətlərimizi və qardaşlığımızı gücləndirəcək daha çox layihələrin birgə icrasını davam etdirməkdə tamamilə qətiyyətli və həvəsliyik. Bir daha mənim başçılıq etdiyim nümayəndə heyətini burada, Bakıda qəbul etdiyiniz üçün Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Mən fürsətdən istifadə edərək Sizin üçün münasib vaxtda bizi Tbilisidə ziyarət etmək üçün Sizi səfərə dəvət etmək istərdim. Çox sağ olun.

## *Türkiyəyə müalicəyə göndərilən daha 2 qazimiz ölkəyə qayıtdı*




**Türkiyəyə göndərilən daha 2 qazimiz sağalaraq Vətənə geri dönüb.**

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən Adalet.az-a verilən məlumata görə, ağır yaralanan və müalicə üçün "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilən 2 qazimiz sağalaraq Vətənə geri dönüb.

Qazilərimiz Məmmədov Ədalət Ramazan oğlunun və Abdullayev Pərvin Dövlət oğlunun Türkiyədəki müalicə proseduru artıq uğurla yekunlaşıb. Onların qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də Fond tərəfindən təmin edilib.

**"YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq hazırda daha 62 qazimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdirilir.**

# Prezidentin köməkçisi və DSX rəisi Ermənistanla sərhədə gedib

**2021-ci ilin 3-4 may tarixlərində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkov-nik Məhərrəm Əliyev və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qubadlı" əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrinə səfər ediblər.**

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat Mərkəzindən Adalet.az -a bildirilib ki, səfər çərçivəsində ölkəmizin ərazi bütövlüyü bərpa edildikdən və işğal altında olan torpaqlarımız azad olunduqdan sonra bu ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarının icra vəziyyəti yoxlanılmış, son müddətdə bu ərazilərdə artıq 10 yeni hərbi hissənin fəaliyyətə başlamasının böyük əhəmiyyət kəsb etməsi



xüsusi qeyd olunmuşdur. 26 aprel tarixində Cəbrayıl rayonu ərazisində Dövlət Sərhəd Xidmətinin yeni inşa olunmuş hərbi hissəsinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin sərhədçilər qarşısında çıxışından irəli gələn məsələlərin qısa müddətdə həll olunmasının vacibliyi vurğulanmış, Azərbaycan sərhədçilərinin bu tapşırıqların da öhdəsindən layiqincə gələcəklərinə əminlik ifadə olunmuşdur.

Ezamiyyət müddətində əlahiddə sərhəd diviziyasının xidməti ərazisində dövlət sərhədinin etibarlı mühafizəsinin təşkili İstiqamətində həyata keçirilən fəaliyyətlər, o cümlədən yeni hərbi hissələrin inşası, sərhəd yollarının çəkilməsi, ərazidə hərəkətin təmin edilməsi üzrə tikinti-quruculuq işləri və təhlükəsizlik tədbirləri nəzərdən keçirilmiş, sərhəd-döyüş məntəqələrində xidmət aparan sərhədçilərlə görüşülmüş, hərbi qulluqçuların xidməti-döyüş və məişət şəraitləri ilə tanış olunmuşdur.

Əlahiddə sərhəd diviziyasının rəhbər heyətinin iştirakı ilə xidməti müşavirə keçirilmiş, vəzifəli şəxslərin xidməti ərazidə mövcud olan əməliyyat şəraiti və görülən tədbirlər haqqında məruzələri dinlənilmiş, hərbi hissə və bölmələrin döyüş hazırlığının daha da yüksəldilməsinin, dövlət sər-hədinin toxunulmazlığının və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsinin vacibliyi xüsusi qeyd olunmuşdur.

Səfər çərçivəsində həmçinin Azərbaycan-İran dövlət sərhədində Zəngilan rayonu ərazisində "Bartaz" sərhəd zastavasında xidməti-döyüş fəaliyyətinin təşkili, dövlət sərhədinin etibarlı mühafizəsinin daha da yüksəldilməsi üçün görülən işlərlə yerindəcə tanış olunmuş, şəxsi heyətin xidməti və yaşayış şəraitinə baxış keçirilmiş, zəruri tapşırıq və tövsiyələr verilmişdir.

# Eldar Əzizov icra başçısına irad tutdu

**Bakı Şəhər İcra Hakimiyyətində (BŞİH) paytaxtdakı istirahət parkları, bağlar və "Abad məhəllə"lərin hazırkı vəziyyəti ilə bağlı videokonfrans formatında müşavirə keçirilib.**

Bu barədə Adalet.az-a BŞİH-in mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, müşavirədə çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov son illərdə Prezident İlham Əliyevin səyləri nəticəsində Bakı şəhərinin parklar şəhərinə çevrilməsini və bu prosesin davam etdiyini vurğulayıb. Praktiki olaraq şəhərin bütün rayonlarında çoxsaylı parklar, bağlar və istirahət guşələri yaradılıb. İDEA İctimai Birliyi və şəxsən təşkilatın rəhbəri Leyla Əliyevanın fəaliyyətinin nəticəsi olaraq məhəllələrarası parklar yaradılıb və bu proses inkişaf etməkdədir.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı qeyd edib ki, paytaxtda parkların sayı çoxaldıqca onlara göstərilən qulluğun səviyyəsi də artmalıdır. Lakin bəzən səhlənkarlıq hallarına da yol verilir.

Məsələn Sabunçu rayonunda yerləşən EKO park yerli icra qurumlarının diqqətsizliyi nəticəsində baxımsız vəziyyətə düşmüşdü. Buna görə də Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyevə iradlar tutulub.

Hazırda mövcud nöqsanların aradan qaldırılması məqsədi ilə Sabunçu Ra-




yon İcra Hakimiyyəti tərəfindən bu ərazidə müvafiq tədbirlər həyata keçirilir.

Müşavirədə ölkə başçısının Bakı şəhərindəki park, bağ və istirahət guşələrində müvafiq şəraitin yaradılması ilə bağlı tələbləri rayon icra hakimiyyətləri başçılarının nəzərinə çatdırılıb. Qeyd edilib ki, hər bir rayon icra hakimiyyətinin başçısı ərazisindəki parkların vəziyyəti ilə bağlı məsuliyyət daşıyır.

Əgər ərazidəki park şəhər və ya rayon icra hakimiyyətinin balansında deyilsə, bu zaman rayon rəhbəri məsələdən kənarlaşmamalı, koordinator kimi çıxış edərək mövcud problemləri həll etməlidir.

Şəhər icra hakimiyyətinin başçısı əlavə edib ki, son vaxtlarda bəzi məmurlar problemləri həll etmək əvəzinə bir sıra bəhanələr gətirirlər ki, bu da yolverilməzdir.

**Qeyd edilib ki, may ayının 20-dən sonra görülən işlərlə bağlı paytaxt rayonlarının icra hakimiyyətləri başçılarının hesabatları dinləniləcək.**

# Polis narkobaronlara qarşı əməliyyat keçirdi

**Polis əməkdaşlarının keçirdikləri əməliyyat zamanı dövriyyədən 128 kiloqram heroin çıxarılıb.**

Daxili İşlər Nazirliyindən Adalet.az-a verilən məlumata görə, hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən narkotik vasitə və psixotrop maddələrin ölkə ərazisində yayılmasının qarşının alınması istiqamətində mübarizə tədbirləri uğurla davam etdirilir.

Belə ki, nazirliyin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən əldə edilən əməliyyat məlumatı əsasında Beyləqan rayonunda həyata keçirilən tədbir nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən, əvvəllər narkotik vasitələrin qaçaqmalçılığı ilə məşğul olduqlarına görə dəfələrlə məhkum edilmiş rayonun Şahsevən kənd sakinləri Veysəl Həsənov və Əbülfəz Rüstəmov saxlanılıblar. Onların üzərlərində olan bağlamalara baxış keçirilən zaman ümumi çəkisi 91 kiloqram olan narkotik vasitə, o cümlədən 61 kiloqram heroin, 1 kiloqram tiryək, 16 kiloqram qurudulmuş marixuana və 13 kiloqram psixotrop maddə olan metamfetamin aşkar olunaraq götürülüb. Veysəl Həsənov və Əbülfəz Rüstəmov ifadələrində şəxsiyyəti hələlik istintaqa məlum olmayan xarici ölkələrdən birinin vətəndaşının sifarişi ilə külli miqdarda yüksək təsiredici xassəyə malik narkotik vasitələri ayrı-ayrı şəxslərə çatdırmaq məqsədi ilə ölkə ərazisinə gətirdiklərini bildiriblər. Bu şəxslər narkotik



vasitələrin paytaxt Bakı və bölgələrdə şəxsiyyətləri istintaqla araşdırılan şəxslərə çatdırmaqla realizə olunmasını təşkil etməli imişlər.

Baş İdarə əməkdaşlarının Sumqayıt şəhərində keçirdikləri əməliyyat zamanı şəhər sakini Elşad Süleymanov da saxlanılıb. Onun yaşadığı evdən 20 kiloqrama yaxın heroin və 1 ədəd elektron tərəzi aşkar olunaraq götürülüb. Saxlanılan şəxs külli miqdarda narkotik vasitəni tanışı olan xarici ölkələrdən birinin vətəndaşından satmaq məqsədi ilə aldığını bildirib.

Baş İdarənin Cənub Bölgəsində Regional Şöbəsinin əməkdaşları tərəfindən Astara rayonunda həyata keçirilən növbəti əməliyyat zamanı əvvəllər məhkum olunmuş Kamran Ağayev saxlanılıb. Onun evinə baxış zamanı ümumi çəkisi 6 kiloqramdan çox narkotik maddə, o cümlədən, 1 kiloqram 400 qram heroin, 2 kiloqram 840 qram marixuana, 2 kiloqram 750 qram tiryək, 100 qrama yaxın metamfetamin və 1 ədəd sənədləri olmayan ov tüfəngi aşkar edilib.

Baş İdarə əməkdaşlarının Sabunçu rayonunda həyata keçirdikləri əməliyyat nəticəsində isə narkotik vasitələrin satışı ilə məşğul olan Xalid Vəlişov saxlanılıb. Onun Sabunçu rayonunda gizlətdiyi yerdən satış məqsədi ilə əldə edib saxladığı 4 kiloqram 580 qram heroin aşkar edilib.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı Baş İdarənin əməkdaşları tərəfindən paytaxtın Nəsimi və Xətai rayonlarında keçirilən əməliyyatlar zamanı isə əvvəllər məhkum olunan Asim Rəsulov, Zöhrab Nəbiyev, Zaur Məmmədov və Zaur Quliyev saxlanılıblar. Polislər tərəfindən Asim Rəsulovdan 1 kiloqram 215 qram, Zöhrab Nəbiyevdən isə 1 kiloqram 86 qram heroin və metamfetamin aşkar olunub. Həmçinin Zaur Quliyevin üzərindən və yaşadığı ünvandan müxtəlif adda ümumi çəkisi 3 kiloqram 528 qram narkotik vasitə, eləcə də 1000 ədəd psixotrop tərkibli həb, 2 ədəd elektron tərəzi aşkar olunaraq götürülüb. Zaur Quliyevdən həmçinin narkotik vasitələrin satışından əldə etdiyi pul vəsaitləri də aşkar edilib.

Bununla da Baş İdarə əməkdaşları tərəfindən son 1 həftə ərzində keçirilən əməliyyatlar nəticəsində qanunsuz yollarla ölkə ərazisinə gətirilən yüksək təsiredici xassəyə malik ümumi çəkisi 128 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddənin realizə olunmasının qarşısı alınıb.

**Qeyd edilən faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb və saxlanılan şəxslər istintaqa cəlb olunublar. Cinayət işləri üzrə zəruri istintaq və əməliyyat tədbirləri davam etdirilir.**

*Aqil ABBAS*

# ŞƏHİDLƏRİN RUHU AĞAC OLUB ÇİÇƏKLƏYİR

**Bu alma ağacını aprelin 15-də qəzetimizin əməkdaşı Nicat Novruzoğlu Ağdam məscidinin önündə əkib. 20 gün öncə. Və gördüyünüz kimi, ağac həm yarpaqlayıb, həm də tumurcuqlayıb.**



**Budur Qarabağ torpağı. Budur Qarabağ torpağının bərəkəti, qeyri-adiliyi.**

**Uşaq vaxtı bu torpaqdan yemişəm. Bir yerimiz qanayanda bu torpağı qoyardıq yaramızın üstünə, qan kəsərdi.**

**Ağdama birinci səfərimdə məhləmizdəki torpaqdan bir çimdik götürüb yedim, dedim görüm dadı qaçmayıb ki? Uşaq vaxtı yediyim həmin torpaq idi, dadıtamı da öz yerində.**

**Qaçay Köçərli Qədir Rüstəmova bir şeir həsr eləmişdi:**

***QƏDİR,***
***SƏSİNİ YARAMIN ÜSTƏ SARIYIM.***

**İndi azad olunmuş Qarabağ torpağı bütün yaralarımızı sağaldacaq. Qazilərin, şəhidlərin yaralarına səpdiyi Qarabağ torpağı!**

**Şəhidlərin, qazilərin qanı ilə suvardıq Qarabağ torpağını!**

**Şəkildə gördüyünüz alma ağacı da bir şəhidin ruhudu: yarpaqlayıb, tumurcuqlayıb.**

**Torpaq deyil ey, baldı, bal. Çiçək kimi təmiz Kəlbəcər balı, Qubadlı balı.**

## *Marketdə məhsulları əzən şəxs işdən çıxarılan generalın oğlu imiş*

**Bakıda marketlərdən birində məhsulları yararsız hala salaraq sosial şəbəkələrdə paylaşan və polis tərəfindən saxlanılan şəxslərdən biri - Rüstəm Orucov general-mayor Novruzəli Orucovun oğludur.**

Trend-in məlumatına görə, bir neçə gün əvvəl marketlərin birində Bakı şəhər sakinləri R.Orucov və Xəyalə Vəliyeva marketlərdən birinə daxil olaraq qida məhsullarını qəsdən yararsız hala salıb və bu prosesi mobil telefon vasitəsilə çəkib sosial şəbəkələrdə paylaşıb.





Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları həmin şəxsləri saxlayıb, R.Orucov və X.Vəliyeva ilə profilaktiki söhbətlər aparılıb, o cümlədən mağazaya dəymiş maddi ziyan ödətdirilib. R.Orucov və X.Vəliyeva törətdikləri əməldən peşman olduqlarını bildiriblər.

Xatırladaq ki, 2017-ci ilin iyulun 3-də general-mayor Novruzəli Orucovun oğlu R.Orucov sürücülük hüququndan məhrum olunmasına baxmayaraq, idarə etdiyi BMW markalı 10-OG-300 dövlət nömrə nişanlı avtomobillə yol hərəkəti qaydalarını pozduğuna görə, ona əsaslı irad bildirmiş sürücü Sənan Səmədovun idarə etdiyi marşrut avtobusunu təqib edərək sərnişinlərin həyatına təhlükə yaradıb, bir qrup şəxslə həmin sürücüyə xəsarətlər yetirərək xuliqanlıq edib.

Binəqədi Rayon Məhkəməsinin hökmü ilə R.Orucov 4 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Bu hadisədən sonra R.Orucovun atası Novruzəli Orucov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin həqiqi hərbi xidmətə çağırış üzrə müavini - Həqiqi hərbi xidmətə çağırış baş idarəsinin rəisi vəzifəsindən azad edilib.

## *Bakıda 108 ədəd binanın sakinləri köçürülür*

**Bakı şəhəri üzrə meriyanın balansında olan 108 ədəd istismara yararsız bina mövcuddur. Hazırda sözügedən binalarda köçürülmə işləri aparılır:**

**Adalet.az-ın məlumatına görə, bunu Bakı şəhər İcra Hakimiyyətinin (BŞİH) şöbə müdiri Rövşən Ağayev deyib.**

**Onun sözlərinə görə, hazırda BŞİH-in balansında 11 min ədəd çoxmənzilli yaşayış binası mövcuddur: "Bu binalardan 108-i istismara tam yararsız vəziyyətdədir. Həmin binanın yarasız olması və insanların köçürülməsi barədə bizə artıq rəy verilib.**

**Rəyə əsasən, biz Nazirlər Kabinətinə də artıq müraciət etmişik.**

**Hazırda bu binalarda yaşayan şəxslərin köçürülməsi prosesi aparılır".**

**Xatırladaq ki, bir neçə gün öncə Badamdar qəsəbəsində binanın üzlük daşının 14 yaşlı yeniyetmənin başına düşməsi nəticəsində bədbəxt hadisə baş verib. Həmin yeniyetmə bu gün dünyasını dəyişib.(trend)**

# HİDAYƏT ELVÜSAL ÜSYAN ETDİ



*Ruslar erməni sürüsünü az qala hər gün Kəlbəcərə daşıyır. Güya kilsəni ziyarət edirlər. O kilsəni ki, haylara qətiyyən dəxli yoxdur, qədim alban abidəsidir.*

*Bunu adət şəklinə salmaq, bizi də indidən bu erməni gəliş-gedişinə alışdırmaq istəyirlər. Həyasız düşmən ermənistana bir yolun da məhz Kəlbəcərdən keçməyini tələb ediir. Rus oynaşları da bunun üçün ciddi-cəhdlə çalışır.*

*Amma biz indi heç olmasa qrup şəklində doğma yurda gedə bilmirik. Kəlbəcər həsrətilə dünyasını dəyişənlər var. Kütləvi qayıdışa qədər heç olmasa yaşlılara imkan yaradılmalıdır ki, o yerləri görsün, havasını yenidən udsun, bir qurtum suyunu içsin,gülünü-çiçəyini qoxlasın. Doğrudanmı bu çətin məsələdir ?*

*Bu turist səfəridir, ata-baba yurduna niyə.belə getməliyik? - deyənlər olacaq. Bəs neynəyək ? Hələlik heç olmasa yaşlılarımıza belə şərait yaradılmasını tələb edirik.. Bu işlə Kəlbəcər İcra Hakimiyyəti məşğul ola bilər. Sadəcə olaraq məsələni səlahiyyətli orqanlar qarşısında qaldırmaq lazımdır.*

*Axı, yurd həsrətli yaşlılarımız indi daha həyacanlı, daha səbrsiz olublar. Son günlər məhz bu səbəbdən dünyasını dəyişənlər var.*

*Yurdumuza heç olmasa yaşlılarımızın baş çəkə bilmələri hələlik mümkün deyilsə, o erməni sürüsü nədən Kəlbəcəri su yoluna döndərib?*



Səxavət Məmməd

# Baş verənlər hamısı məqsədli şəkildə edilir

*Ölkədə dəyər anlayışı qalmayıb. Hər şey, ağıla gələn, gəlməyən hər şey iyrəncləşdirilir. Uzağa getməyəcəm, son zamanlar baş verənlərə toxunacam.*

*Dilqəmlə Şahbaz həbsdə olarkən barmaqla sayılacaq qədər insanlar onların mahiyyətini bilirdi. Bunu bilən insanlar onlar ölkəyə qayıdandan sonra öz aralarında söhbət edərkən deyirdi ki, onlara mikrafon, diktafon uzadılsa, hər şey üzə çıxacaq və oldu.*

*Ölkə əhalisinin böyük əksəriyyəti onları bir direniş, kişilik simvolu kimi görürdü. Sayələrində bu mif darmadağın oldu.*

*Ardınca bir nəfər sosial şəbəkədə Xudayarı məsxərəyə qoydu. Deyəcəksəniz ki, zarafat edirdi. Götürək heç Xudayar şəhid deyildi. Yol qəzasında rəhmətə getmişdi. Ölmüş bir adamla zarafat hansı məntiqə sığır? Kimsə danmasın, ətrafımızda nənə, baba zarafatı edən adamlar görmüşük. Bölgəyə görə bu yaxın qohumlara qədər gedir. Götürək nənə və babanı. Onlar rəhmətə gedəndən sonra o zarafatı edən olur?*

*Ağzı alışan adamlar belə o səhvi edəndə min dəfə üzr istəyir. İllərin dostları arasında söz-söhbətə səbəb olur. Həmin o "zarafat"ı edən şəxs döyüləndə, bir qrup başladı ki, hüquqi dövlətdə yaşayırıq. Qardaşım, həmin dövlətdir də, demokratiyanın "D"sinin olmadığı dediyiniz. Sonra başldı söyüşlər, təhqirlər havada uçuşmağa. Mətbuatımız da bir yandan bu işə çanaq tutdu. Xudayarın anası danışdı, aləm qarışdı. Biri deyir, ananın əlindən öpürəm, biri deyir, ana kabadayıdır. Qarşılıqlı təhqirləşmə bitdi, olan Xudayara oldu.*

*Xudayar məsələsi bitməmiş Polad Həşimov məsələsi ortaya çıxdı. Polad Həşimovun ailəsinə o medalın veriləcəyi təxminən 10 gün əvvəldən bilinirdi. O vaxt bu məsələni eşidəndə, düşündüm ki, dövlət olaraq buna qarşı çıxarıq, icazə verilməz.*

*Nə oldu? Medal verildi, ardınca ana danışdı və yenidən çirkinlik başldı.*

*Əlimdə faktım yoxdur, ona görə qəti deyə bilmirəm, ancaq iddia edirəm ki, baş verənlər hamısı məqsədli şəkildə edilir. Birinci müharibədə avtoriteti olanların heç biri sağ çıxmadı. İndi də, xalqın içində hörməti olanları urvatsız edirlər.*

# Netanyahu hökuməti qura bilmədi, mandatı bitdi



**İsrail Baş naziri Benyamin Netanyahuya yeni hökumət formalaşdırması üçün verilən vaxt bu gecə bitib.**

Axar.az xəbər verir ki, İsrail mətbuatı Netanyahunun koalisiya hökuməti qurmaq üçün Yamina Partiyasının sədri Naftali Bennetlə danışıqlar apardığını yazıb. Tərəflər arasında olan ilkin razılaşmaya əsasən, baş nazir postunu rotasiya əsasında ilk olaraq Bennet, sonra isə Netanyahu tutmalı idi. Lakin sonradan tərəflər yekun razılıq əldə edə bilməyiblər.

Netanyahunun Likud Partiyası isə gecə baş nazirə hökumət formalaşdırması üçün verilən mandatın bitməsinə 3 dəqiqə qalmış bəyanat yayaraq, Benneti koalisiyanın yaradılmasına mane olmaqda ittiham edib.

**Qeyd edək ki, İsraildə son iki ildə 4 parlament seçkisi baş tutub. Əgər bu dəfə də ölkə qanunlarında göstərilən tarixə qədər hökumət formalaşdırmaq mümkün olmasa, ölkə payızda beşinci seçkiyə getməli olacaq.**

**MEHRİBAN**

# Könül Nurullayeva: "Nəzarət mexanizmləri sərtləşdirilməlidir"

**Milli Məclisin deputatı Könül Nurullayeva parlamentin iclasında çıxış edib. O, son vaxtlar istənilən yaş kateqoriyasından olan şəxslərin, xüsusilə uşaqların intiharı hallarına diqqət çəkib. Bildirib ki, bu problemə xüsusi həssaslıqla yanaşmaq vacibdir. K.Nurullayeva aprel ayında qeydə alınan azyaşlıların intihar faktlarını xatırladıb: "22 aprel 2021-ci il tarixində KİV-də yayılan məlumata əsasən, 13 yaşlı uşaq özünü asaraq intihar etmişdir.**



İddia olunur ki, 13 yaşlı Ramizə qarşı laqeyd və diqqətsiz davranış, ayrılmış valideynləri və ailəsində baş verən problemlər onun intihar etməsi ilə nəticələnmişdir. Digər bir məlumatda təmsil etdiyim Nizami rayonu Keşlə qəsəbəsində atası tərəfindən azyaşlı qız uşağına qarşı mütəmadi şiddət göstərilməsi faktı qeyd edilib, həmin valideynlərin valideynlik hüququnun məhdudlaşdırılması məsələsi ilə bağlı məhkəməyə müraciət edildiyi də bildirilir. 27 aprel 2021-ci il tarixində isə 17 yaşlı İsa Alməmmədov intihar edib. Təəssüflər olsun ki, bu siyahını genişləndirmək də olar. " Uşaq intiharları və onlara qarşı göstərilən fiziki şiddətlə əlaqədar dəqiq statistik məlumatların əldə edilməsində hələ də problemlər olduğunu qeyd edən K.Nurullayeva bildirib ki, adətən ailə daxilində yaranan münaqişələr ailə daxilində qalaraq yalnız ağır nəticələrə səbəb olduğu təqdirdə hüquq mühafizə orqanları tərəfindən araşdırılır: "Bu məsələlərdə iki problemə diqqətinizi çəkmək istərdim: Uşaq intiharlarına və azyaşlılara qarşı törədilən cinayət xarakterli əməllərə vaxtında ciddi hüquqi reaksiya verilirmi, mütəmadi olaraq həmin uşaqlar psixoloji və digər yardımlar ala bilirlərmi?! Risk qrupuna aid olan bütün uşaqlarla fəal iş aparılırmı?! Latent - yəni qapalı cinayətlərin aşkar edilməsi istiqamətində hansı işlər görülür?! " Azyaşlı uşaqların polisə müraciət edəcək qədər hüquq düşüncəsinə malik olmadığını və ya sonrakı nəticədən qorxduqları üçün çəkindiklərini bildirən millət vəkili qeyd edib ki, bu sahədə işlər gücləndirilsə törədilmiş cinayətlərin sayının azaldılmasında da ciddi nəticələr əldə oluna bilər. K.Nurullayeva hesab edir ki, cinayətlərin profilaktikası bu kimi əməllərin acı nəticələrini aradan qaldırmaqdan daha asan və effektivdir: "Əsas istiqamət isə intihar cinayətlərinin araşdırılması ilə bağlı hüquqi yanaşmada olan problemlərdir. İntihar faktları zamanı adətən "özünü öldürmə həddinə çatdırma" maddəsi üzrə araşdırma aparılır ki, bu halda da əksər işlərdə yaxın qohumların, mütəmadi psixi və fiziki işgəncə tətbiq edən valideynlərin cəzalandırılmamasını görürük.

Hüquq tətbiq edən orqanlar bu məsələlərdə humanist yanaşaraq uşaq itirmiş bir ailəyə cəza verməklə onlara qarşı sərt tədbir görmürlər. Halbuki belə tədbirlər görülməlidir ki, digər şəxsləri də həmin hərəkətləri etməkdən çəkindirmək məqsədi reallaşsın.

Əslində biz uşaq hüquqlarına dair bir çox məsələləri qanunvericilik prosesində həll etmişik.

Lakin sadalanan tədbirlərin həyata keçirilməsi zamanı nəzarət mexanizmləri sərtləşdirilərsə, uşaqların daha sağlam və normal psixologiya ilə cəmiyyətdə layiqli yer tutmasına kömək etmiş olarıq."

# Sülhməramlıların xəritə, şəhərcik, humanitar yardım, zəvvar oyunları: MƏQSƏD...

**Yazıma başlamamışdan əvvəl qeyd edim ki, Azərbaycan ictimaiyyəti Rusiya sülhməramlılarının Dağlıq Qarabağda olmasına heç də razılıqla qarşılamayıb. Haqlı olduğu da zaman keçdikcə təsdiqləndi. Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin 2020-ci ilin 10 noyabr tarixli Sazişinin şərtlərinRusiya sülhməramlılarının Qarabağa yerləşdiyi ilk gündən pozulmağa başladı.**

## Xəritə oyunu

Deməli, noyabr ayının 26-da Xocavənd rayonunun Sur kəndində xidmət aparan əsgərlərimizə qarşı təxribat törədildi. Ermənilərin qəfil hücumu nəticəsində 3 hərbi qulluqçumuz şəhid edilib, 2 nəfər yaralandı.

Növbəti terror hücumu isə dekabrın 8-də Hadrut qəsəbəsi yaxınlığında rabitə qurğularının və ötürücü avadanlıqların quraşdırılması işlərinin aparılması zamanı edildi. Bu zaman da 1 hərbi qulluqçumuz şəhid oldu, "Azercell" şirkətinin əməkdaşı isə ağır yaralandı. Bu terrorçuların dərhal ərazidən çıxarılması tələbinə cavab verilmədiyi üçün 11 dekabrda DTX anti-terror əməliyyatı həyata keçirərək, Köhnə Tağlar və Çaylaqqala kəndlərini nəzarət altına götürdü, daha sonra isə Böyük Qaladərəsi və Kiçik Qaladərəsi istiqamətindəki terrorçulara xəbərdarlıq etdi.

***Rusiya Müdafiə Nazirliyinin insidentdən dərhal sonra - 13 dekabrda "xəritəni yenilədiyini" açıqlaması artıq Bəyanata da, sülhməramlı missiyasına da, ümumiyyətlə, rus ordusunun burda mövcudluğunun səbəbinə də həddən artıq böyük şübhə yaratdı. 11 dekabrda baş verən insident niyə 10 noyabrdan üzü bəri qeydə alınan ilk atəşkəs pozuntusu sayıldı-deyə düşünərkən digər suallar da qarşımıza çıxdı:Rus sühməramlıları bu təxribatları və terror hücumlarını niyə "qeydə" almayıb və adekvat davranmayıb? Kim ixtiyar verib Rusiya sülhməramlılarına ki, Köhnə Tağlar və Çaylaqqala kəndləri ətrafına qədər "sərhədləri" çəksinlər? Axı, bəyanatda konkret yerlər göstərilib və "rayonların qaytarılması" da Azərbaycanın qanunları ilə tənzimlənməlidir!?***

Milli Məclis sədrinin müavini, deputat Adil Əliyev "Facebook" hesabında" Rusiya sülhməramlılarının Sazişdə nəzərdə tutulmuş hüdudları aşan yeni xəritə təqdim etməsi, əzəli və əbədi torpaqlarımızın başqa adla təqdim olunması, xəritədə manipulyasiya etməsi heç başa düşülən deyil"-deyə məsələyə etirazını bildirdi.

Beləliklə, məlum bəyanatın hüdudlarını aşan yeni xəritə təqdim edilməsi dəfələrlə baş verdi və bu Azərbaycan ictimaiyyətində ciddi narazılıq doğurdusa da, qarşısı alındı.

## Şəhərcik oyunu

Davranışından belə görünür ki, Rusiya Qarabağa yeni hərbi qüvvə yerləşdirməyi planlaşdırır. Bunun üçün hazırlıq işləri də artıq görülür.

Rusiyanın müdafiə naziri Sergey Şoyqu prezident Vladimir Putinlə görüşü zamanı Qarabağda 330 yerlik blok-modul hərbi şəhərciyin işə salındığını bildirib. Nazir qeyd edib ki, 2021-ci il aprelin 1-dək daha 32 modul şəhərciyin salınmasını nəzərdə tutublar. Bu isə rusiyalı hərbçilərin sayının 5 dəfə artırılacağı deməkdir. Xatırladaq ki, bəyanata əsasən, Rusiya kontingenti 1960 hərbi qulluqçudan, 90 BTR və 380 ədəd avtomobil və digər xüsusi texnikadan ibarət olmalıdır. Ancaq Rusiyanın bölgəyə pilotsuz uçuş aparatı belə yerləşdirdiyinə dair məlumatlar da yayıldı.



Rusiya və erməni mediasından davamlı bildirilir ki, Xankəndi, Getavan, Karakend, Xaçmaç, Martuni, Askeranda 12 blok-modul tipli şəhərcik tikilib istifadəyə verilib. Yaxın gələcəkdə bu cür şəhərciklər Sisian-2, Çartar, Laçin, Sos, Canyataq, Karmir Şuka (Qırmızı Bazar), Martakert, Zarışlı, Şuşi, Zabux, Cebraberd, Kırıkaxada da tikiləcək. RF Müdafiə nazirinin müavini Dmitri Bulqakov 250 hərbçi üçün nəzərdə tutulmuş modul tipli şəhərciyin açılışında iştirak edərkən deyib ki, bu gün 25 belə şəhərciyin avadanlıqlarını tamamlayıblar, istismara vermə işləri davam edir və aprelin 5-dək istismara veriləcək. Gürcüstan sərhədində Rusiyadan Ermənistana göndərilən zirehli (gülləkeçirməz) gödəkçələr tutulub. Ötən ilin avqust ayında isə Rusiyadan Ermənistana təyyarələrlə qanunsuz yollarla silah daşınırdı.

***İndi də Ermənistana hərbi "bronjiletlər"in göndərilməsi bir daha təsdiq edir ki, Rusiya öz işindədir, Ermənistana hər cür hərbi dəstək verməkdə davam edir. Belə iddialar da səslənir ki, Rusiyada müəyyən dairələr Ermənistanı yeni müharibəyə hazırlayır.***

## Humanitar yardım oyunu

Sülhməramlılar Qarabağa ermənilərlə yanaşı, hərbi texnika və humanitar yardım adı altında yük daşıyırlar. Rusiya Qarabağda hərbi baza yaradırmı -sualı insanın beyninə hakim kəsilir. Təkcə dekabrın 11-dən 23-dək Rusiya Azərbaycanın bu bölgəsinə 54 vaqon yük daşındığını bildirib. Bunların 1 200 tonluq humanitar yük olduğu iddia olunur və "humanitar yardımlar" bu günə qədər intensiv davam etməkdədir.

Fevral ayının açıqlamasına görə,atəşkəs elan olunandan sonra Rusiya Qarabağa 200 tondan artıq humanitar yardım göndərib. Yük dəmiryolu ilə Azərbaycana və Ermənistana, oradan isə Xankəndinə daşınır.

***Təkcə fevral ayında Rusiyanın Fövqəladə Hallar Nazirliyi Xankəndiyə 6 yük avtomobili ilə 50 tondan artıq yükü daşıyıb. Aprelin 26-da Rusiya Müdafiə Nazirliyinin saytında "Dağlıq Qarabağın Şaumyan rayonunun Aknaberd yaşayış məntəqəsində humanitar-tibbi aksiya" keçirilməsi barədə məlumat yerləşdirilib ("Turan"). Bu məlumat Azərbaycan ictimaiyyətində ciddi etiraz doğurub. Çünki Dağlıq Qarabağda Şaumyan rayonu yoxdur.***

Separatçılar Kəlbəcərin adını Şaumyan rayonu olaraq dəyişdirmişdilər.

Maraqlı bir prosesdən də söhbət açaq:Baxmayaraq ki, Prezident İlham Əliyev də açıqlamasında Qarabağda cəmi 60 min civarında erməni yaşadığını bildirib və göstərilən 139 min rəqəmini təkzib edib, amma... Rusiya MN-in yaydığı rəsmi açıqlamanı tam iki dəfə şişirtməkdə məqsəd Qarabağda erməni əhalisinin sayını artırma cəhdidir. Sonuncu erməni sayı 70 mini keçmişdir və Azərbaycan hüquq-mühafizə orqanları artıq prosesə mütləq nəzarət etməlidir.

Daha bir həssas nüans:Rusiya sülhməramlıları Amaras (Xocavənd), Gəncəsər (Kəlbəcər) və Xudavəng (Kəlbəcər)və digər monastırlara erməni zəvvarıdaşımaqda maraqlıdırlar. İndiki halda bunun qıcıqlandırıcı hal olduğunu nəzərə almırlar. Mayın 2-də isə adıgedən monastırlara 96 erməni zəvvar apardılar.

## Rusiya sülhməramlılarından nə vaxt qurtulacağıq?

Rusiya qoşunları sülh üçün deyil, Ermənistanın gələcək intiqamına və ya heç olmasa, bunu etmək cəhdlərinə şərait yaratmaq üçün gətirildi. Əslində, bunu Dövlət Dumasının deputatı, MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsinin sədr müavini Konstantin Zatulinin aydın şəkildə deyir: "Çox güman ki, bununla bağlı bir siyasət olacaq:" Artsax faktiki olaraq mövcud olacaq, eyni zamanda bir müddət tanınmayacaq. Və bəlkə də, uzun müddət. Bütün bunlardan sonra Dağlıq Qarabağın statusu məsələsinin qaldırılacağını və erməni tərəfinin razı qalacağı şəkildə həll ediləcəyini düşünmək indi qəribə olardı. Hər şeydən əvvəl məğlubiyyətdən nəticə çıxarmaq, güc toplamaq, müdafiə qabiliyyətini yeni səviyyəyə qaldırmaq, siyasi və iqtisadi böhranı aradan qaldırmaq lazımdır. Yalnız bundan sonra istədiyiniz Dağlıq Qarabağ statusunu necə əldə edəcəyimizi düşünə bilərik. Bu səbəbdən də sülhməramlıların qalma müddəti heç bir texniki cəhət deyil, çox vacib bir siyasi və hətta geostrateji bir cəhətdir. Moskvada bunu gizlətmirlər.

**Rusiyanın "Nezavisimaya Gazeta"sı açıq şəkildə bildirir ki, "Rusiya sülhməramlılarını hansısa bölgəyə gətirirsə, həmin ərazini ancaq Kremlin qərarı ilə tərk edirlər". Və bu "heç vaxt" anlamına gətirib çıxarır.**

**Əntiqə Rəşid**

Yılmaz Özdil

# Vətəndaş qəzetçiliyi



*2004-cü il idi.*

*Hind okeanında 9,3 gücündə zəlzələ oldu, sunami yarandı. İndoneziya, Tailand sahillərinə vurdu, 230 min insan həyatını itirdi.*

*Dünyanın ən böyük xəbər agentlikləri fəlakət bölgəsindən hələ bir görüntü əldə etmədiyi halda, Norveç qəzeti Verdens Gang bol-bol fotolar və videolar yayımlağa başladı.*

*Çünki...*

*O günə qədər Norveçdən kənarda adı-sanı duyulmayan bu qəzet bir il əvvəl "vətəndaş qəzetçilər" üçün telefon xətti qurmuşdu.*

*Sunami başlayan kimi bölgədə olan norveçli turistlər telefonları ilə hadisəni çəkib Verdens Ganga yollamışdı.*

*Beləcə, sunami baş verən dəqiqələri əlindən qaçıran dünyanın ən böyük xəbər agentlikləri fəlakət bölgəsinə müxbir göndərənə qədər Norveç qəzeti müxbir belə göndərmədən bölgədəki vətəndaş müxbirlərin hesabına sunamini saniyəbəsaniyə bütün dünyaya göstərmişdi.*

***

*Mətbuat tarixinin miladı idi.*

***

*Vətəndaş qəzetçiyi anlayışı 1990-cı illərdə ABŞ-da ortaya çıxdı.*

*Sənəti qəzetçilik olmayan adamların xəbərə şahidlik etməyinə, texnologiyanı istifadə edərək yayımlanmasına, yəni o xəbəri topluma ötürməsinə vətəndaş qəzetçiliyi deyilir.*

*Facebook, Twitter, Instagram istifadəçiləri youtuberlər, bloggerlər "vətəndaş qəzetçi" kimi qəbul edilir.*

*Çünki telefonlarla və bu cür digital sosial paylaşım imkanları ilə şəxsi medialarını qurmuş olurlar, xəbər olaraq gördüklərini, fikirlərini vasitəsiz şəkildə topluma təqdim edirlər.*

***

*Qəzetçilik nə qədər azalırsa, vətəndaş qəzetçiliyi də bir o qədər artır.*

***

*Sunami xəbhəri bu mənada milad idi… Ənənəvi media texnologiyanın sürətinə çatmamış peşəkar qəzetçilərin boşluğunu vətəndaş qəzetçilər doldurmuş və həvəskar qəzetçilik refleksi ilə qlobal miqyasda xəbərə imza atmışdılar.*

***

*Artıq bu gün vətəndaş qəzetçilər sadəcə xəbərlərə tövhə verməklə qalmır, modadan musiqiyə, kinodan turizmə, idmandan kosmetikaya qədər gündəlik həyatımızda yer alan istənilən mövzuda rol oynayırlar.*

*Vətəndaş qəzetçiliyinə arxasını çevirən xeyir tapmır.*

***

*Türkiyənin gəlib-getmiş ən yüksək tirajına sahib, Türkiyənin ən yüksək reytinqinə sahib xəbər komandalarını idarə edən peşəkar bir qəzetçi olaraq qürurla deyə bilərəm ki, tirajın da, reytinqin də sirri işin içinə vətəndaş qəzetçiliyindən qatmaqdan keçir.*

*Peşəkarlıq həvəskar ruhdan, həvəskar həyəcandan nə qədər uzaqlaşsa, tiraj da, reytinq də bir o qədər aşağı düşür.*

***

*Bugün dünyada 5 milyard insanda mobil telefon var.*

*4,5 milyard insan internet istifadəçisidir.*

*Hər gün 350 milyard e-mail göndərilir.*

***

*Google-da hər dəqiqədə 5 milyon axtarış edilir.*

*Facebook-da hər bir dəqiqədə 3 milyon paylaşım edilir.*

*Twitter-da hər bir dəqiqədə 500 min paylaşım olur.*

*İnstagram-da hər bir dəqiqədə 60 min foto paylaşılır.*

*WhatsApp-dan hər gün 100 milyard mesaj göndərilir, hər gün 100 milyard!*

***

*Türkiyədə 50 milyon insanın ağıllı telefonu var.*

*Türk vətəndaşları gündə təxminən 8 saat internetdən istifadə edir.*

*Gündə təxminən 3 saat sosial mediada oturur.*

*Validеynlərinin telefonundan internetə girənlərin yaşı 2-ə düşdü, sadəcə 5 il öncə ancaq 5 yaşlı uşaqlar bacarırdı.*

*Dilimizə uyğunlaşdıran: Eminquey*

# Rusiyaya qarşı təzyiqlər artır

**ABŞ -ın dövlət katibi Entoni Blinken beynəlxalq öhtəliklərə əməl etməsi üçün Rusiyaya qarşı təzyiqlərin artırılmasını təklif edib. " Rusiyanın hərəkətlərinin qarşısının alınması, Moskvanın beynəlxalq müqavilələrə və öhtəliklərə əməl etməsi üçün biz birgə çalışmalıyıq"- deyə o, özünün Twitter səhifəsində yazıb.**




**Dövlət departamentinin nümayəndəsi Ned Prays Blinkeni dəstəkləyərək qeyd edib ki, Rusiya Minsk razılaşmalarına görə razılaşmalara əməl etməli və Ukraynanın qərbində münaqişənin nizamlanması məsələsinə ciddi yanaşmalıdır. " Rusiya həmçinin Krımın işğalına son qoymalıdır"- deyə Prays yazıb. Bu arada Londonda G7 liderlərinin iyun sammitinə hazırlıq məqsədi ilə klub dövlətlərinin xarici işlər nazirlərinin görüşü keçirilir. G7 XİN rəhbərlərindən başqa Hindistan, Avstraliya, Cənubi Koreya, CAR və Cənubi-Şərq dölətləri Assosasiyası nümayəndələri də qonaq kimi dəvət olunublar. Görüşün ikinci yığıncağında çıxış edən Yaponiyanın xarici işlər naziri Tosimusu Moteqa klub üzvlərinə Rusiyaya qarşı "qarşılıqlı münasibət" göstərmək planının hazırlanmasını təklif edib.**

**Britaniya Rusiyanın Ukrayna sərhədlərindəki hərəkətlərini "nəticəsiz" əməllər kimi qiymətləndirib.**

**Rusiya tərəfi ona qarşı irəli sürülən ittihamları qəbul etmədiyini, bu cür sübutsuz bəhanələrlə NATO qüvvələrinin Rusiya ətrafına yerləşdirilməsinə çalışdıqlarını bildirib.**

**Rüstəm Hacıyev**



Rəşad Məcid

# "Oxu tar! Ağdama gələn var"

*Adamın çızdağını çıxaran, hiss və duyğularını öz əsarətində saxlayan olduqca təsirli bir film.*

*Səadət Məmmədovanın "Oxu tar! Ağdama gələn var" filmini izləyəndən sonra ilk təssürat kimi bu cümləni yazdım.*

*Həqiqətən də elə bir təsir gücü, elə bir cazibəsi var idi ki, əvvəlindən axırınacan adamı yaratdığı auradan çıxmağa qoymurdu. Belə bir qiymətli filmi ərsəyə gətirdiyi üçün Səadət xanıma çoxlu təbriklər və təşəkkürlər düşür.*

*Səadət öz anası və bacıları ilə birlikdə Ağdamdan çıxanda uşaq, yeniyetmə yaşlarında olub, yəqin ki, çətinliklər də çəkib, problemlərlə də üzləşib, ağrılı-acılı günlər də yaşayıb.*

*Amma mən bu illər ərzində bir dəfə də olsun, onun dilindən narazılıq, giley-güzar, şikayət eşitməmişəm.*

*Əvəzində isə, köksündə gəzdirdiyi hüdudsuz Ağdam sevgisini, qəlbindəki Ağdam yanğısını, Ağdam həsrətini həmişə hiss etmişəm. Səadət özü də, bacısı Vüsalə də, həkim anası da bu illər ərzində xarakterlərindəki ağdamlılara xas qüruru, kübarlığı, toxluğu qoruyub saxlayıblar.*

*Ağdamdan ilk reportajını ürək ağrısıyla izləmişdim, içimdən bir gizilti keçmişdi. Ağdam sevgisini, uşaqlıq duyğularını, mərhum atasının xatirəsini bu qədər dipdiri saxlaya bilməsi mənə möcüzə kimi görünmüşdü. O reportajı izləyən, Səadətin özünün tanımadığı neçə-neçə insan ona təşəkkürlərini çatdırmağımı xahiş etmişdilər.*

*Səadətin bu yeni layihəsinin ilk filmi isə adamda tamam bambaşqa bir ovqat yaratdı.*

*“Şur" ansanblının rəhbəri Fərhad Paşayev Ağdam mədəniyyətinin simvollarından biridir, neçə-neçə ağdamlı musiqiçinin üzə çıxmasında, yetişməsində əvəzsiz rolu olan insandır. "şur" ansanblı bir vaxtlar SSRİ-nin, Moskvanın ən mötəbər, ən nüfuzlu konsert salonlarında çıxışlar edib, böyük rəğbətlə, heyranlıqla qarşılanıb. Qarabağın, Ağdamın əsrlərdir muqiqi beşiyi olduğunu kim dana bilər ki?*

*Səadətin Fərhad müəllimlə Ağdama səfəri - onun doğulduğu evdən, çalışdığı musiqi məktəbindən, İmarətdən danışdığı xatirələri, o uçuq divarlar, xarabalıqlar arasında ifası, kövrəlməsi adamın qəlbini alt-üst edir, sümüklərini sızıldadırdı.*

*Fərhad müəllim keçən əsrin 70-ci illərində Ağdamdakı həmin musiqi məktəbində, həmin dərs otağında düz iki il mənə tar dərsi demişdi. Peşəkar və heç zaman unudulmayacaq insandır.*

*Bu veriliş həm də cavab idi -musiqiçilərinin kilsədəki süni, qurama ifalarını canfəşanlıqla təbliğ edərək, özlərinin məsum , fağır obrazlarını yaradıb, diqqət çəkmək, gözə girmək istəyənlərə kəsərli və əyani cavab.*

*çox sağ olun, Səadət xanım - Fərhad müəllimlə bu kövrək söhbəti etdiyinizə və belə bir dəyərli film ortaya qoyduğunuza görə. Bu, təkcə Ağdama yox, həm də Ağdamın o möhtəşəm dövrünün, əsrarəngiz gözəlliyinin canlı şahidləri olmuş bizlərin öz uşaqlığına hüzünlü bir səfəri idi.*

*Əminəm, növbəti verilişləriniz üçün qonaqlar tapmaqda qətiyyən çətinlik çəkməyəcəksiniz. Ağdamın uçuq divarları, xarabalıqları arasında hətta gözüyumulu gəzib hər tikilini, hər məkanı anlada bilən, Ağdamı yaddaşında dipdiri saxlayan o qədər insan var ki!..*

*Yorulmayın!*

*Şövqdən düşməyin!*

*Könlünüzdəki Qarabağ sevdası heç zaman azalmasın!*

*Var olun!*

***P.S.** Bu qeydləri yazandan sonra saytlarda Səadətin bacısı Vüsalə Məmmədovanın Ağdamdan reportajına rast gəldim. Onun yazdıqlarını da eyni həyəcanla oxudum. 27 il, 9 ay, 30 gün öncə - 1993-cü ilin 12 iyununda qaça-qaça çıxdığı Süleyman Sani Axundov küçəsindəki həyətlərinə dönüşündən, evlərinin paslanmış kilidindən, məhəccərdən, pilləkənlərinin parça-parça olmuş mərmərindən elə böyük sevgiylə, həsrətlə, acıyla danışır ki, təsirlənməyə bilmirsən.*

*"...Atam bu evi hördürüb, damını vurdurandan sonra vəfat etmiş, anam üç qızını böyütməklə yanaşı bu yarımtikilini evə çevirmişdi. Bu müddət ərzində bütün dünya nemətlərini özünə qadağan etmişdi".*

*Qeyri-ixtiyari gözlərin önünə belə istedadlı, qəlbi Vətən, torpaq sevgisiylə dolu, vəfalı, sədaqətli övladları böyüdüb boya-başa çatdıran Ananın obrazı gəlir və içini ona sonsuz minnətdarlıq hissi bürüyür. Düşünürsən ki, həm də buna görə Vətən Anadır - unutdurmadığına görə, unutmadığına görə!..*

# BMT: Son 5 ilin ən ciddi ərzaq böhranı yaşanır



**Ərzaq təhlükəsizliyilə bağlı kəskin vəziyyətlə üzləşən, həyatda qalmaq üçün təcili yardıma möhtac olan insanların sayı son 5 ilin ən yüksək həddinə çatıb.**

Bu barədə Ərzaq Böhranlarına qarşı Qlobal Şəbəkənin hesabatında bildirilir. Belə ki, pandemiyanın tüğyan etdiyi 2020-ci ildə münaqişələr, iqtisadi böhranlar, təbii fəlakətlər nəticəsində 55 ölkə və bölgənin azı 155 milyon sakini kəskin aclıqla üzləşib ki, bu da əvvəlki ilə nisbətən 20 milyon nəfər çoxdur. Bununla da ilk belə hesabatın açıqlandığı 2017-ci ildən bu yana dünyada ərzaq təhlükəsizliyi böhranının durmadan artması bir daha məlum olub. Əvvəllər daha çox Afrika ölkələrində qarşıya çıxan ərzaq təhlükəsizliyi əskikliyi probleminin artıq Əfqanıstan, Suriya, Yəmən, Haiti kimi ölkələrə də sirayət etdiyi, ötən il ən kəskin ərzaq böhranı ilə üzləşən on ölkə sırasına sadalananların daxil olduğu bildirilir. Aclıq problemini şərtləndirən başlıca amillər arasında silahlı münaqişələr, bir çox hallarda COVID-19 pandemiyasının xüsusi rol oynadığı iqtisadi sarsıntılar, habelə meteorologiya əsaslı təbii fəlakətlər qeyd olunur. Ərzaq Böhranlarına Qarşı Qlobal Şəbəkə 2016-cı ildə FAO, Avropa İttifaqı, Dünya Ərzaq Proqramı tərəfindən ərzaq böhranlarına qarşı mübarizə üçün təsis olunub.

**MEHRİBAN**

# ABAD ELƏMƏK İSTƏDİLƏR, BƏRBAD OLDU



**Düz 32 il bundan əvvəl Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsinin ”D” massivindəki 13 nömrəli binanın qarşısında sakinlər çox gözəl bir yaşıllıq yaradıblar. Hansı ki, bir vaxtlar həmin yerlər daşdan, qayadan və suxurlardan ibarət idi. Camaat bu daşı, qayanı təmizləyib maşınlara yükləyərək orda bir səliqə-səhman yaratmağa nail olub. Özü də çox çətinliklə, çox əzab-əziyyətlə bu işləri görüblər. Onların orda əkdikləri hər ağacda, hər yaşıllıqda, hər abadlıqda alın təri, izi var. Üstəlik də bu ağaclara peyin verilib, torpaq gətirilib, isti yay günlərində fasiləsiz olaraq suvarılıb. Hardasa həmin yerdə 300-dən çox ağac var.**



Təbii ki, burda bağ salmaq, ağac əkmək elə də asan olmayıb. O bağın sahiblərindən olan Tahir Əliyev deyir ki, mən burda ömrümü qoymuşam. Elə bilirəm ki, o ağacların hər biri mənim övladımdı. Və övladım qədər bu 32 ildə o ağacların nazıyla oynamışam. Amma təxminən 15 gün bundan qabaq Suraxanı rayonunun Qaraçuxur bələdiyyəsindən və eləcə də icra nümayəndəliyindən gəlib bizə dedilər ki, bu hasarları sökməlisiniz. Sökməsəniz buldozerin qabağına verib dağıdacağıq. Elə dağıtmaq da istəyirdilər. Amma sadəcə olaraq, qadınlar onların qarşısına çıxdı və bu proses də dayandı. Deyilənlərə görə, burda abadlıq işləri görüləcək. Sözümüz yoxdur, qoy görsünlər, amma başqa işlər eləməsinlər. Çünki bizim bağın qarşısındakı bağları da sökəndə demişdilər ki, ağaclara dəyilməyəcək, abadlıq işləri görüləcək. Amma indi orda iki 16 mərtəbəli bina inşa edilir. Ağacları da ”uf” demədən qırdılar. ”Ana Kür” MTK-nın sədri Vahid Abdullayevin tikdiyi bina bizim yaşadığımız 13-cü binanı həm gün işığından məhrum edib, həm də havanın qarşısını alıb. Eşitdiyimizə görə, elə ”bağ əməliyyatı” da həmin dalğadı gəlib bizi tutur.



Bağ sahiblərindən Möhübbət, Rövşən, Zaur və Samir dedi ki, biz abadlığın əleyhinə deyilik. Biz onun əleyhinəyik ki, hasarı sökəndən sonra həmin yerlər bərbad vəziyyətə düşüb. Artıq bir neçə ağac qırılıb və eləcə də məhv edilib. Üstəlik də bağa gedən su xətti də sıradan çıxıb. Biz özümüz söküntü işi apardıq ki, gəlib burda Qaraçuxur bələdiyyəsi və həmin ərazinin icra nümayəndəliyi abadlıq aparsın. Amma indi abadlıqdan söhbət gedə bilməz. On gün keçir, onlardan səs-soraq yoxdur. Ağaclar isə havalar istiləndikcə su verilmədiyinə görə quruyur.

Bağ sahiblərilə söhbət zamanı həm bələdiyyə sədri İxtiyar müəllim, həm də icra nümayəndəsi bildirdi ki, burda abadlıq işləri aparılacaq. Hətta sakinlərdən biri gileyləndi ki, ”Ana Kür” MTK-nın bizim yerə gözü düşüb. Onlar istəyir ki, yolu bağın sahəsinə keçirsinlər və ərazini genişləndirsinlər. Bələdiyyə sədri və icra nümayəndəsi bildirdi ki, bu barədə söhbət gedə bilməz. Burda abadlıq işləri aparılacaq. Amma camaat bələdiyyə sədrinə bir o qədər də etibar eləmir. Çünki hörmətli İxtiyar müəllim bina tikilməmişdən əvvəl sakinlərə demişdi ki, heç bir ağac qırılmayacaq. Ancaq camaat bunun əksini gördü, ağacların qırıldığının şahidi oldu. Belə hadisələr camaatın dövlət qurumlarına inamını azaldır.

Sakinlərin şikayəti əsasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin iki əməkdaşı həmin yerə gəlib, ağacların və yaşıllıqların görüntülərini çəkib. Onlar da bildirib ki, burda bir ağac belə çıxarıla, ya da kəsilə bilməz. Amma artıq iri gilənar ağacı qırılıb yerə düşüb, bir neçə həmişəyaşıl ağacsa yerə aşıb. Deyilənlərə görə, bağ nəzarətsiz olduğu üçün kimlərsə gəlib o ağacları çıxarıb aparmaq istəyir. Bağ sahiblərindən biri olan Rövşən müəllim hətta ağacı çıxarıb aparmaq istəyən adamın şəklini çəkib.

Təbii ki, nəzarətsizlik olan yerdə bu cür hadisələr istənilən qədər baş verə bilər. Camaatın 32 ildə çox əzab-əziyyətlə əkdiyi və böyütdüyü ağaclar artıq hasarlar söküldüyünə görə, nəzarətsiz qalıb. Söz verən dövlət qurumları isə gəlib çıxmaq bilmir ki, bilmir. İndi burda abadlıqdan yox, bərbadlıqdan danışmaq olar. Çünki hər tərəf tullantıların içindədi. Üstəlik də həmin yerlər təmizlənmədiyi üçün vəziyyət bir qədər də gərginləşib. Usta Tahir deyir ki, mən 32 il əkib-becərdiyim ağaclara baxmaqdan xəcalət çəkirəm. Sanki onlar məni qınayır ki, 32 il kölgəmdə oturdunuz, meyvəmi yediniz, xeyrimi gördünüz, bəs indi niyə mənim başıma açılan müsibətə durub tamaşa edirsiniz? Heç olmasa qoymayın bizi məhv olmağa.



Bu günlərdə Bakı şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov şəhərdəki yaşıllıqlarla bağlı müşavirə keçirib. Həmin müşavirədə bir daha hörmətli Eldar müəllim tapşırıb ki, hər bir icra başçısı ərazisindəki yaşıllıqlara diqqət yetirməli, onları məhv olmağa qoymamalıdır. Tabeliyindəki qurumlar abadlıq işlərini davam etdirməlidir. Elə həmin müşavirədə Sabunçu rayon İcra Hakimiyyəti başçısının bəzi yaşıllıqlara və parklara yaxşı xidmət göstərilmədiyinə görə xəbərdarlıq edilib.



**Göründüyü kimi, ünvanını qeyd etdiyimiz yerdə də çoxlu sayda ağaclar və yaşıllıqlar var. Onların qorunmaması, məhv edilməsi onu deməyə əsas verir ki, belə davam etsə, həmin yerlərdə də abadlıq yox, bərbadlıq olacaq. Hər halda, aidiyyəti qurumlar bu vəziyyəti bilməmiş deyil və qısa zaman kəsiyində bundan çıxış yolu tapmalıdılar. Əks təqdirdə, nəzarətsiz və sahibsiz qalan bu ağaclar məhv olub gedəcək.**



**Faiq QİSMƏTOĞLU**

# 30 illik təxribat: İranın Rusiya sülhməramlılarına ”yardım”ının ”pərdəarxası”

**İki gün əvvəl sosial şəbəkələrin İran seqmentində bu ölkənin Ermənistan vasitəsilə Qarabağa ”yardım”ların çatdırılmasını əks etdirən qalmaqallı görüntülər yayılıb.**

Bununla bağlı video ”Azad İran” ”Telegram” kanalında paylaşılıb.

Bu yüklərin Ermənistandan keçərək, Rusiya sülhməramlılarının nəzarətində olan Azərbaycan ərazilərinə aparıldığı bildirilib.

Məlumatda qeyd edilib ki, həmin yük avtomobillərində benzin, qaz, bitum, eləcə də qida, geyim məhsulları, tikinti malları qanunsuz daşınır.

Bundan başqa, bildirilir ki, həmin avtomobillərlə əraziyə külli miqdarda narkotik daşınır.

İran hansı haqla bu ”yardım”ları Azərbaycan ərazisinə çatdırır, rusiyalı sülhməramlılar isə hansı haqla qaçaqmalçılığa göz yumur?

### *Politoloqların məsələyə münasibəti*

Sabiq xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov sosial şəbəkələrin İran seqmentində bu ölkənin Ermənistan vasitəsilə Rusiya sülhməramlılarının nəzarətində olan Azərbaycan ərazilərinə ”yardım”ların çatdırılmasını əks etdirən qalmaqallı görüntüləri şərh edərkən deyib.

Politoloq qeyd edib ki, bu yardımların Ermənistan ərazisindən, Laçın dəhlizi vasitəsi ilə edilməsi və bundan Azərbaycanın məlumatsız olması beynəlxalq qanunların, o cümlədən 10 noyabr bəyanatının ciddi şəkildə pozulmasıdır:

” Ümumiyyətlə, Rusiya sülhməramlılarının Ermənistan vasitəsilə müvəqqəti onların nəzarətində olan Azərbaycan ərazilərinə ”humanitar yardım” çatdırılmasına şərait yaratmaq səlahiyyəti yoxdur. Bu, Azərbaycan Dövlət Sərhəd Xidmətinin səlahiyyətində olan məsələdir. Ona görə də artıq Laçın dəhlizində Azərbaycan Dövlət Sərhəd Xidmətinin fəaliyyətə başlaması zərurətə çevrilib. İndiki halda müvəqqəti olaraq rus sülhməramlıları ilə birlikdə xidmət edilə bilər”.

Rusiyalı ekspert, politoloqAleksey Voronenkobu məsələyə münasibət bildirib: ”Birincisi, əgər yük Laçın dəhlizi vasitəsilə çatdırılırsa, bu barədə mütləq Azərbaycan tərəfinə məlumat verməli idi. Əgər bu, həqiqətən Xankəndidəki erməni ailələrinə humanitar yük olsaydı, Bakını rahat şəkildə məlumatlandırmaq olardı. Bununla da onlar öz yüklərinin təhlükəsiz və açıq şəkildə çatdırılmasını təmin edə bilərdilər. Amma əgər bu iş gizlin görülürsə, onda təbii ki, burada humanitar yükdən söhbət belə gedə bilməz. Ola bilsin ki, İrəvan Qarabağda müəyyən təxribat törətməyi planlaşdırır. Bakı buna hazır olmalıdır”.





### *O “yardım”da nələr var?*

Yadınızdadırsa, yaxın günlərdə Rusiyadan Ermənistana göndərilən hərbi yük (zirehli gödəkçə aparan iki yük maşını) Gürcüstan tərəfindən buraxılmadı.

Bu xəbərin ardınca İrandan Qarabağa ”yardım” göndərildiyinə dair görüntülər yayıldı. Azərbaycanı varlığına hər zaman təhlükə bilən və hər addımda məkrli əməllər törətməklə tanınan İranın ”yardım” adı altında apardığı yük Gürcüstandan buraxılmayan hərbi yükdür.

İki TIR dolusu zirehli gödəkçə Xankəndidəki separatçıların yaratdığı yeni silahlı qruplaşmalar üçün daşındındığı heç kəsə sirr deyil.

Birinci Qarabağ müharibəsində də, Tovuz döyüşlərində də, atəşkəs dövründə də, Rusiyadan Ermənistana daşınan hərbi yüklər çox vaxt Azərbaycana açıq-aşkar nifrət edən İran üzərindən aparılması heç kimə sirr deyil. İran son 30 ildə həm Ermənistan, həm də Qarabağ erməniləri üçün hər zaman nəfəslik rolu oynayıb. Yeri gəlmişkən, yadınızdadırsa, İran rəsmiləri

**İran ”yardım” adı altında Qarabağın işğaldan azad olunmuş ərazilərin bərpasında iştirak etmək istədiyini bildirmişdi və rəsmi Bakı bu istəyi görməzdən gəlmiş, haqlı olaraq quruculuq işlərində İran İslam Respublikasının orada olmasını lazım bilməmişdi. Yəqin, bunu həzm edə bilməyən Cavad Zərif növbəti öz aləmində rəsmi Bakıya ”zərbə”ni belə vurmağı özünə borc bilib.**

**Əntiqə Rəşid**

## *ABŞ Çini hədələdi: Bu ölkənin statusunu dəyişmək...*



*Tayvanın statusunu zorla dəyişdirmək cəhdi ciddi səhv ola bilər.*

*Bu sözləri ABŞ Dövlət katibi Entoni Blinken deyib.*

*"Tayvanın özünü qoruma yollarını təmin etməkdə qərarlıyıq.*

*Bu öhdəlik itən deyil. Bu mənada kimlərinsə Tayvanın status-kvosunu dəyişdirməyə cəhd etməsi ciddi yanlışlıq ola bilər", - deyə dövlət katibi bildirib.*

*Blinken Çinin Tavyana yönəlik fəaliyyətinin ciddi narahatlıq doğurduğunu da əlavə edib.*

**MEHRİBAN**

# Siqaretim yana-yana...

**Siqaret böyük bəladır. Onun təsirindən əmələ gələn xəstəliklərin nəticəsində insanların əksəriyyəti vaxtından qabaq dünyasını dəyişir. ABŞ-da xərçəng əleyhinə fəaliyyət göstərən cəmiyyət 187 min papiros çəkən arasında tibbi tədqiqatlar apararaq belə nəticəyə gəlib ki, ağciyərxərçəngindən ölənlər arasında papiros çəkənlər çəkməyənlərdən 20-25 faiz çoxdur. Ürək xəstəliyindən ölmə halları da müvafiq olaraq 13 dəfə artıqdır. Görəsən, tütünün xeyirli cəhəti varmı? Var, ancaq bir sahədə. Tütündən alınan nikotin-sulfatdan kənd təsərrüfatı bitkilərinə ziyan verən həşəratlara və mənələrə qarşı istifadə edilir.**

Almaniyada hər il 23706 nəfər siqaret çəkən ağciyərxərçəngindən vəfat edir. ABŞ-da isə hər il 125-130 min adam papirosun qurbanı olur. Məşhur Amerika cərrahı Terrinin verdiyi məlumatlara görə, Amerikada siqaretin törətdiyi xəstəliklərdən hər 4-cü dəqiqədə 1 adam ölür...

Tütün badımcançiçəklilər -"Solanaceae" fəsiləsinə aiddir. Karl Linneyə görə, tütün nikotiana -"Hocotiana" cinsinə aid olub, 100-ə qədər növü özündə birləşdirir. Tütünün növlərinə ən çox Amerika və Astraliya qitələrində təsadüf etmək olar.

***Tütünün sənaye əhəmiyyətli iki -"Hocotiana tabacum" -tütün və "Hicotiana rustina" -tənbəki növü məlumdur. Tütün və tənbəki birillik ot bitkisidir. Gövdəsi düz dairəvi olub, yarpaqları gövdə üzərində növbə ilə düzülür. Tütün bitkisinin müxtəlif rənglərdə -açıq, sarımtıl, tutqun, narıncı, yaşıl yarpaqları olur. Yarpaqlarının formaları bitkinin növündən asılı olaraq dairəvi, uzunsov, ürəkvari, kürəkvari, lansetvari, ellepsvaridir. Gövdəsinin yuxarı ucunda süpürgəvari çiçəklər yerləşir.***

Tütün yarpaqlarından müxtəlif növ papiroslar, siqarlar və başqa tütün məmulatları hazırlanmaqla yanaşı, sənayedə də geniş istifadə edilir.

Hər il dünya bazarına 7 milyon tondan artıq tütün məhsulu çıxarılır ki, bunun da 3,5 milyon tonu Asiya ölkələrinin payına düşür. Asiya ölkələrində tütünü ən çox Çin, Hindistan, Yaponiya, Türkiyə istehsal edir.

Amerikada hər il 1 milyon ton, Avropa ölkələrində isə 800 min ton tütün tədarük olunur.

### *Tütün bitkisi*

***insanlara 2000 il əvvəl məlum olub. İlk dəfə 1492-ci ildə Xristofor Kolumb tütündən Baham adalarının sakinlərinin istifadə etdiyini müşahidə edib. Kolumb Amerikanı kəşf edərkən həmin ildə tütünə Antil adalarında və eləcə də, Kuba adasında rast gəldiyini söyləyib. Səyyah Andre Teve isə 1555-ci ildə tütün bitkisinə Braziliyada da təsadüf etdiyini qeyd edir.***

Rəvayətə görə, X.Kolumbun yoldaşlarından biri görür ki, yerli əhali qəribə bir bitkinin qurudulmuş yarpaqlarını bərk-bərk burur (bükür), yandırıb ondan tüstü çıxarır. Quru yarpaqdan burulub hazırlanmış məmulatı yerli əhali "tabako" və yaxud "siqaro" adlandırır, hörmət əlaməti olaraq gəlmələri həvəslə qonaq edirdilər. Yerli əhali "siqaro"nu gildən düzəldilmiş və rənglərlə bəzədilmiş xüsusi boru formalı alətlə -"kalyanud" və yaxud "dünya çubuğu" ilə çəkirdilər.

Cənubi Amerikada tütünün uzun siqar formasında eşilib çəkilməsi adi hal olaraq az sonra İspaniya və Portuqaliyaya gəlib çıxıb. Bu ölkələrdən isə bütün Avropa və Asiya ölkələrinə yayılıb. Hal-hazırda Asiyanın bir çox tropik ölkələrində yabanı tütün bitkisinə təsadüf olunur. Yerli əhali ondan mədəni halda əkilmiş tütünlə yanaşı istifadə edir.

Tütün bitkisinin toxumunu ilk dəfə Avropaya 1519-cu ildə ispanlar gətiriblər. Avropada tütünün daha geniş miqyasda yayılmasında Fransanın Portuqaliyadakı səfiri (həkim) Jan Hikonun böyük rolu olub. O, ilk dəfə tütünün müalicəvi əhəmiyyətə malik bitki olduğunu qeyd edib. Jan Hikonun şərəfinə tütün onun adı ilə "Hicotiana" adlandırılıb.

***Onun 1560-cı ildə tütün yarpağından aldığı rəngsiz maddəyə "nikotin" adı verilib. O dövrdə ilk dəfə olaraq Portuqaliya kraliçası Yekaterina Mediçinin sarayında tütündən baş ağrısına qarşı vasitə kimi istifadə edilib. Sonra tütündən istifadə o qədər sürətlə inkişaf edir ki, artıq XVIII əsrin axırlarında elə bir ölkə tapılmır ki, orada bu bitkiyə rast gəlinməsin. Rusiyaya isə tütün XVI əsrin axırlarında gətirilmiş, XVII əsrin əvvəllərində yayılmağa başlayıb.***



### *Son 10-15 ildə*

Yer kürəsində əhalinin artımı 13 faiz olduğu halda, tütün istehsalı və ondan istifadə olunma 24 faiz artıb. Bu hesabla Yer kürəsində 15 yaşından yuxarı hər bir nəfərə ildə orta hesabla 1,23 kq tütün düşür. Bir çox ölkələrdə isə bu rəqəm 2-4 dəfə çoxdur. Məsələn, İngiltərədə, Belçikada, Kanadada, Hollandiyada və ABŞ-da hər bir nəfərə 2,85-4,44 kq tütün düşür.

Hazırda dünyanın 90 ölkəsində sənaye əhəmiyyətli tütünçülük təsərrüfatı fəaliyyət göstərir. Tütünçülük sənayesinin inkişafı ilə əlaqədar olaraq insanların bu bitkiyə marağı artmağa başlayır. XX əsrin əvvəllərindən orduda əsgərlər arasında papiros çəkənlərin sayı kəskin surətdə artmağa başlayır. Az sonra siqaretə aludəlik qadınlar, gənclər, hətta uşaqlar arasında da özünü göstərir. Hazırda ABŞ-da 70 milyon insan siqaret çəkir. Onlardan 40 faizi kişilər, 30 faizi qadınlardır.

İngiltərədə isə kişilərin 65, qadınların 40 faizi siqaret çəkir.

### *Hələ qədim zamanlarda*

***papirosun insan orqanizminə zərərli təsiri haqqına məlumatlar verilirdi. Lakin papirosun insan orqanizminə zərərli təsiri haqqında düzgün və mütəmadi məşğul olan tibb müəssisələri yox dərəcəsindəydi. Bir müddətdən sonra tütünçülük sənayesi inkişaf etmiş ölkələrdə insanlar arasında xərçəng xəstəliyinin artdığı müşahidə olunmağa başlayır. İnsanlarda xərçəng xəstəliyi ən çox ağciyərlərdə təsadüf olunurdu. Bunu nəzərə alaraq tibb mütəxəssisləri ağciyərlərdə əmələ gələn xərçəngin yaranma səbəblərini öyrənməyə başladılar. Tədqiqatların nəticəsində məlum oldu ki, orqanizmdə əmələ gələn bir çox xərçəng şişlərinin başlıca səbəbi papirosdur. Bu nəzərə alınaraq tütünçülük inkişaf edən ölkələrdə siqaretin orqanizmə zərərli təsiri haqqında geniş elmi-tədqiqat işləri aparılmağa başladı. Kimyaçı alimlər tütün yarpağının tərkibini analiz edərək onda 0,3 faizdən 8 faizə qədər nikotin - C10H14N2 maddəsi aşkar etdilər. Hikotin papiros tüstüsünün tərkibində olan ən zəhərli maddədir. Təmiz halda nikotin rəngsiz yağaoxşar maye olub, kəskin iyə, acımtıl tama malikdir. Bu maddə suda, spirtdə, efirdə, xloroformda yaxşı həll olur.***

Hikotin ən çox quşlara zəhərli təsir göstərir. Belə ki, şüşə çubuğun ucuna azca nikotin sürtüb sərçəyə yaxınlaşdırdıqda onun dərhal öldüyünün şahidi olacağıq. Hikotinə qarşı nəinki quşlar, hətta balıqlar və sürünənlər çox həssasdırlar. Bir damcı nikotin akvariumda olan bütün balıqları zəhərləyib məhv etmə qabiliyyətinə malikdir. Gündə 20-25 siqaret çəkən adama nikotin öldürücü təsir göstərir. 50-75 mq nikotin insanı öldürür. Valideynlərindən gizli papiros çəkən yeniyetmələr arasında nikotindən zəhərlənmə hadisələrinə daha tez-tez rast gəlmək olar. Orqanizmi papirosa uyğunlaşmayan insanlarda nikotindən zəhərlənmə hadisələri daha çox müşahidə edilir.

İlk dəfə siqaret çəkən insanlarda nikotinin təsirindən bir sıra xoşagəlməz hallar baş verir: baş gicəllənir, ürək bulanır, bəniz ağarır, qusma olur, ağız köpüklənir, başda səs və gurultu əmələ gəlir, kəskin baş ağrıları, ürək döyünməsi, ümumi zəiflik, əlin əsməsi, üşütmə halları, mədə-bağırsaq sisteminin pozulması müşahidə olunur. Sonralar get-gedə orqanizm nikotinin təsirinə uyğunlaşmağa başlayır. Bunun nəticəsində tədricən xoşagəlməz proseslər aradan qalxmağa başlayır. Lakin siqaret çəkən insan şüurlu surətdə özünü ölümə sürükləyir.

İngilis həkimi Riçardson apardığı müşahidələrin nəticələrini ümumiləşdirərək göstərir ki, 40 yaşlı fəhlə ağır fiziki işdən sonra heç bir qida qəbul etmədən 12 saat ərzində 40 siqaret və 14 siqar çəkib. Axşam yatağa girəndə onda narahatçılıq, həyəcanlanma, halsızlıq, süstlük, kəskin baş ağrıları baş verir, yaxşı yata bilmir. Səhərisi həkimlər onda göz bəbəklərinin böyüyüb genişlənməsini, temperaturun 35,5 dərəcəyə düşməsini, bədənindən soyuq tərin axdığını müşahidə etmişlər. Bir azdan sonra xəstənin rəngi ağarır, qıcolma başlayır, axşama yaxın isə ürəyin iflici nəticəsində dünyasını dəyişir.

### *Tütünün orqanizmə zəhərli təsiri*

***təkcə nikotinlə qurtarmır. Belə ki, tütün tüstüsünün tərkibində 4000-dən çox zəhərli maddə aşkar edilib. Bunların 40-dan çoxu xərçəng xəstəliyi törədir. Bunlardan ammonyakı, sianid turşusunu, dəm qazını və s. misal göstərə bilərik. Bu maddələrin təsirindən qan oksigenlə yaxşı təmin olunmur və orqanizmdə qarşısıalınmaz hadisələr baş verir. Ağciyər, boğaz, dil xərçənginə və ağciyəremfizeması ilə xəstələnmə hallarının 95 faizdən çoxuna səbəb siqaret çəkməkdir.***

Habelə siqaret çəkənlər çəkməyənlərə nisbətən daha tez-tez infarkt keçirirlər. Müntəzəm olaraq siqaret çəkənlərin ağciyərxərçənginə tutulma ehtimalı isə 10 dəfə artıqdır. Tütün tüstüsündə olan kanserogen, mutagen və zəhərli maddələrin əsas hədəfi ağciyərlərdir. Papiros çəkərkən tüstünün sublimasiyası nəticəsində onlarda müxtəlif sinfə aid olan politsiklik aromatik karbohidrogenlər, nitrozobirləşmələr, arsen birləşmələri, vinilxloridin monomeri, radioaktiv polonium və s. kimi kanserogenlər əmələ gəlir.

***Hikotin kimyəvi kanserogenlərin insan orqanizminə təsiretmə mexanizmini sürətləndirir. Gündə 1,5-2 qutu siqaret çəkənin ömrü 10-15 il qısalır. ABŞ epidemioloqları hesablayıblar ki, əgər ölkənin kişiləri papirosu atsaydılar, ağciyərxərçəngi ilə xəstələnmə halları 40 faiz azalardı.***

Siqaretin insan orqanizmi üçün ən qorxulu təsirlərindən biri də odur ki, tütün çox yüksək temperaturda (700-800 dərəcədə) yanır və bu zaman politsiklik aromatik karbohidrogenlər əmələ gəlir. Bundan başqa, siqaretin tüstüsü zəif turşu reaksiyası olduğundan, o, ağciyərlərə asanlıqla nüfuz edir.

### *Tədqiqatlar göstərir ki,*

gündə 40 siqaret çəkib tüstüsünü udmayanlar gündə 5 siqaret çəkib tüstüsünü bütünlüklə ciyərlərinə çəkənlərə nisbətən ağciyərxərçəngi ilə xəstələnmə təhlükəsinə daha az məruz qalırlar, düzdür, bu nöqteyi-nəzərlə bir çox mütəxəssislər razı deyillər.

***Siqaretin dibinə qədər çəkilməsi də çox zərər verən amillərdəndir. Aparılan təcrübələrdən məlum olmuşdur ki, papiros çəkən adamlar ətraflarındakı papiros çəkməyənlər üçün onkoloji təhlükə yaradırlar. İş burasındadır ki, bir siqaretin tüstüsündə dörd kanserogen təsirə malik nitroza birləşmələrin miqdarı təxminən 1-90 mq-dır. Əgər tütünün tərkibində çoxlu nitratlar olarsa, onda nitroza birləşmələrinin miqdarı 10-15 dəfə artır.***

Tədqiqatlar göstərir ki, çoxlu siqaret çəkilmiş otaqda oturmuş papiros çəkməyən adam bir saat ərzində filtirsiz 9-10 siqaret, filtirli 17-30 siqaret çəkmiş adam qədər nitrozodimetilamin udur.

Statistika göstərir ki, adam nə qədər tez siqaret çəkməyə başlasa, proqnoz bir o qədər pis olur. Papirosçəkmə, zərərli peşə amilləri və xərçəng arasındakı qarşılıqlı əlaqələr məsələsi çox kəskin qoyulmuşdur. Belə ki, urantərkibli mədənlərdə işləyən papiros çəkən şaxtaçıların, ya da asbest sənayesinin papiros çəkən işçilərinin ağciyərxərçəngi ilə xəstələnmə ehtimalı papiros çəkməyənlərə nisbətən daha yüksəkdir.

Əgər papiros çəkən adam bu vaxt spirtli içki də qəbul edirsə, onda spirt həlledici kimi siqaretin təsirini gücləndirir. Fransız alimlərinin statistik məlumatlarına görə ağciyərxərçəngi ilə xəstələnmə təhlükəsini vahid kimi götürsək, onda papiros çəkməyənlərdə 0-1,23, papiros çəkib spirtli içki qəbul etməyənlərdə 1,53, papiros çəkən və spirtli içki qəbul edənlərdə isə 5,71-ə bərabər olar.

Gündə bir qutu siqaret çəkən insan ildə 500 rentgen radiasiya ilə şüalanır. Papiros çəkənlərin 98 faizi udlaq xərçəngindən, 97 faizi ağciyərxərçəngindən, 75 faizi xroniki bronxitdən vəfat edir.

**Tütün tarlalarında, onun istehsal olunduğu fabrik və zavodlarda işləyən qadın və kişilər arasında tez-tez baş ağrıları, zəhərlənmələr nəticəsində qusma, halsızlıq, zökəm, astma, bronxit və ağciyərxərçəngi baş verir. Qadınlar arasında uşaqsalma, vaxtından qabaq uşaq doğma, doğulan uşaqların çoxunda şikəstlik və ölüm hallarının sayı çoxalır.**

**(ardı var)**

**İLTİFAT**

---

*Zaur Əliyev*

# Bir eşq hekayəsi



***Bu gün Azərbaycan siyasi tarixində mühüm rol oynamış şəxslərdən biri, Əlimərdan bəy Topçubaşovun ad günüdür. Onun siyasi və diplomatik fəaliyyəti barədə çox yazıblar. Bu gün onun anım günündə Əlimərdan bəyin həyat yoldaşı, sevdiyi qadın Pəri xanımla eşqindən yazacam.***

***Əlimərdan bəyin ilk görüşdə sevdiyi xanımın atası Azərbaycan dilində ilk qəzet nəşr edən, maarifçi Həsən bəy Zərdabi idi. Tifilsdə yaşayan Həsən bəy öz ovladının burda təhsil alması üçün çox çalışır və bu şəhərdə rus qız gimnaziyasında ilk təhsil alan azərbaycanlı qız Pəri xanım olub. Qısa bir müddətdə Pəri xanım həm təhsili, həm də yüksək ədəb-ərkanı ilə müəllimlərinin hörmətini qazanır. Əlimərdan bəy Pəri xanımı ilk görüşdə görüb bəyənir, onun haqqında maraqlanır. Azərbaycanlı xanımın nitq qabliyyəti və savadı bəyin o qədər xoşuna gəlir ki, onunla dostluq münasibəti qurur. Bu dostluq münasibəti zamanla sevgiyə çevrilir. Onların bu səmimi münasibəti gimnaziyada Hənifə xanımın müəlliməsi olan Mariya xanımın diqqətindən yayınmır. O, Həsən bəyə məktub yazaraq bu məsələni açır və Əlimərdan bəyin onun qızına layiq olduğunu bildirir. Həsən bəy Mariya xanımın məktubundan sonra böyük oğlu Midhətlə Tiflisə gəlir, Əlimərdan bəylə tanış olur.***



Pəri xanım Topçubaşova

Əlimərdan bəy Topçubaşov

***1893-ci il 31 dekabrda Tiflisdə Əlimərdan bəy Topçubaşov ilə ailə qurub. Onun atası olan Zərdabi çox mütərəqqi ziyalı olmasına baxmayaraq, qızı üçün Topçubaşovdan 10 min rubl başlıq pulu istəmişdi. Əks təqdirdə qızını ona verməyəcəyini deyən Həsən bəy Zərdabinin dəfələrlə yanına gedən Əlimardan bəy bu qədər pulu olmadığını deyir. Lakin Həsən bəyin fikrinin qəti olduğunu görən Əlimərdan bəy Pəri xanımla toy mərasimi keçirməməyi və qənaət olunan pulu Həsən bəyə verməyi qərara almışdılar.***

***Əlimərdan bəy Topçubaşov 1919-cu ildə Paris sülh konfransına yola düşərkən ailəsini də özü ilə birlikdə aparır. Düzdür Pəri xanımın anası Hənifə xanım etiraz etsə də, O, həyat yoldaşını tək qoymaq istəmir. Fransada yaşayan ailə ilk zamanlar çətinlik çəksə də, Əlimərdan bəyə Pəri xanım hər tərəfli dəstək olur. Hüquq təhsili almış Pəri xanım çox vaxt sənədlərin hazırlanmasında onun yardımcısı olurmuş.***

***Pəri xanım Fransada mühacirətdə olmuş və 1947-ci ildə orada dünyasını dəyişmiş, Paris yaxınlığında Sen-Klu məzarlığında, həyat yoldaşı Əlimərdan bəy Topçubaşovun yanında dəfn olunub.***

---

## *"Pandemiya dövründə kütləvi iftar mərasimlərindən çəkinməliyik"*



**İnsanlar çalışmalıdır ki, pandemiya dövründə kütləvi iftar mərasimləri təşkil etməkdən çəkinsinlər.**

Bunu Trend-ə açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nümayəndəsi Hacı Şahin Həsənli deyib.

Ş.Həsənli bildirib ki, artıq 2-ci ildir ki, Ramazan ayı pandemiya dövrünə təsadüf edir. O qeyd edib ki, dünya ölkələrində olduğu kimi Azərbaycanda da karantin rejimi tətbiq edilir, müəyyən məhdudlaşdırıcı addımlar atılır və vətəndaşlar bu qaydalara ciddi şəkildə riayət eməlidir: "Ramzan ayı başlayanda Qafqaz Müsəlmanları İdarəsi olaraq insanlara müraciət etmişdik ki, pandemiya səbəbindən Ramazan ayında kütləvi iftar mərasimləri təşkil olunmasın və vətəndaşlarımızın da böyük əksəriyyəti bu çağırışlara əməl edir. Yoluxmaların artmaması üçün Ramazan ayının sonuna doğru da bu qaydalara əməl etməliyik. Artıq Ramazanın üçüncü 10 günlüyünə daxil olmuşuq və çalşmalıyıq ki, sona qədər bu qaydalara riayət edək. İnsanlar çalışmalıdır ki, kütləvi iftar mərasimləri təşkil etməkdən son günə qədər çəkinsinlər. Hazırda Azərbaycanda yoluxma dinamikası müsbətə doğru dəyişib və yoluxanların sayı azalıb. Bu müsbət gedişatı qorumaq üçün qaydalara ciddi riayət etməliyik və ümid edirik ki, bu, bizim pandemiya dövründə qeyd etdiyimiz son Ramazan ayı olar. Ancaq hazırda pandemiya davam edir və biz dinimizin də göstərişinə əməl edərək bu məsələdə ehtiyatlı davranmalıyıq, çünki dinimiz də buyurur ki, öz əlinizlə özünüzü təhlükəyə atmayın".

---

## *Bakıda ən çox yoluxma bu rayonlarda olub*



**Bakı şəhəri üzrə ən çox yoluxma halları Binəqədi, Xətai və Yasamal rayonlarında olub.**

Trend-in məlumatına görə, paytaxt üzrə yoluxanların 14,7 faizi Binəqədidədir. 13,4 faizi Xətai, 12,3 faizi Yasamal rayonunun payına düşür. Yoluxma hallarının 11,1 faizi Sabunçu, 7,9 faizi Nəsimi, 8,2 faiz isə Nərimanov rayonlarında qeydə alınıb. Yoluxma hallarının 7,0 faizi Nizami, 7,1 faizi Xəzər, 4,5 faizi Qaradağ, 5,1 faizi Səbail rayonlarındadır. Bakı şəhəri üzrə ən az yoluxma halı isə Pirallahı rayonunda olub.

---

# Mənalı müəllim ömrü

**Müəllimin işini haqlı olaraq cərrahın işi ilə müqayisə edirlər. Cərrah əməliyyat edərək insanı düçar olduğu bəladan qurtarır. Müəllim isə insanın mənəvi dünyasının mühəndisi kimi şərəfli və çətin bir missiyanı yerinə yetirir. Amma fərq burasındadır ki, cərrah əməliyyat zamanı insanın hər hansı bir nahiyəsini zədələyər, onu fəaliyyətdən saxlaya bilər. Onda təkrar əməliyyata ehtiyac yaranar. Müəllim isə insanların mənəvi paklığının keşiyində sərvaxt dayanır. O, günəşəbənzər ömrü ilə milyonlarla insanın həyat yoluna şəfəq saçır.**

Məşhur yazıçı Çingiz Aytmatov demişdir: "Əgər bir ac adama bir çörək versən, on gün tox olar, on çörək versən, on gün tox olar, ona çörək qazanmağın yolunu öyrətsən, o, ömrü boyu tox olar." Müəllim də müəyyən mənada buna çalışır. Çünki çörək qazanmağın yolunu gərgin zəhmətdən, halal əməkdən keçdiyini yetirmələrinə inandırmaq, onlara başa salmaq o qədər də asan deyil.

Siracəddin Sultanov bu çətin və şərəfli yükü çiyinlərinə götürdüyü gündən nə az, nə çox düz 23 il keçir.

Siracəddin Salman oğlu Sultanov 1961-ci ilin mart ayında Quba rayonunun Nütəh kəndində fəhlə ailəsində anadan olmuşdur. 1981-ci ildə hərbi xidməti başa vurduqdan sonra bir müddət Sumqayıt şəhərində Kompressorlar zavodunda fəhlə işləmişdir. 1988-ci ildə indiki ADPU-nun "UTF və fizika" fakultəsini bitirərək təyinatla



Sumqayıt şəhərinə göndərilmişdir. Əvvəlcə Sumqayıt şəhər MAİK-da elektrotexnika və fizika müəllimi işləmiş 1989-cu ildən 1994-cü ilə kimi isə Sumqayıt şəhər 6 saylı tam orta məktəbində ixtisası üzrə əmək fəaliyyətini davam etdirmişdir.

1994-1998-ci illərdə şəhid M.Cəfərov adına Nütəh kənd ümumi orta məktəbində direktor, 1999-cu ildən 2015-ci ilin iyun ayına kimi ixtisası üzrə müəllim işləməklə yenidən məktəb direktoru vəzifəsində çalışır.

Zəngin mütaliə, çalışdığı kollektivdə çox səmimi, mehriban, işgüzar olması, şagirdlərə təkcə bilik verməklə kifayətlənməyib, onları yaxşı vətəndaş kimi yetişdirməsi, görülən işlərə arxayınlaşmamaq daha irəliyə can atmaq, adamlarla işləməyi bacarmaq, istedadlı müəllimlər, valideynlər arasında onun nüfuzunu artırmışdır. Məktəb direktoru işlədiyi müddətdə məktəbin maddi-texniki bazasının əmək intizamının möhkəmləndirilməsində uğurlar əldə etdi. Səmimi kollektiv yaratdı və təlim-tərbiyəni xeyli yüksəltdi.

Siracəddin müəllim son dərəcə sadə, olduğu qədər də ciddi, məsuliyyətli və təvazökar adamdır. O, kollektivə qarşı onə qədər qayğıkeşdirsə, bir o qədər də tələbkardır. Tərif xoşlamır. Əslində buna onun heç ehtiyacı da yoxdur.

Siracəddin müəllim valideynlərin də ən yaxın məsləhətçisi, yolgöstərənidir. Tərbiyəsində qüsuru olan, valideynlərini yersiz incidən neçə-neçə nadinc uşağın düzgün yola qayıtmasında zəhmətini qeyd etməmək olmaz. Kənddə Siracəddin müəllimi təşəbbüskar ziyalı kimi də tanıyırlar. Xeyir-şərdə yaxından iştirak edir, əl tutur, məsləhətlər verir.

Siracəddin müəllim məzunlarla daim əlaqə saxlayır. Onlarla tez-tez görüşür. Yetirmələri isə müxtəlif peşə sahibləridir: müəllim, mühəndis, inşaatçı, sürücü və s. Hər dəfə onların xoş sorağını eşidəndə ürəyi dağa dönür.

Müəllimlərin pedaqoji fəaliyyətinin və ad günlərinin, yubiley ildönümlərinin yaddaqalan şəkildə qeyd edilməsi də Siracəddin müəllimin təşkilatçılıq fəaliyyətinin nəticəsidir. Kollektiv üzvləri ilə söhbət zamanı hər kəs S.Sultanovun tələbkar, vəzifə borcunu layiqincə yerinə yetirən, həmçinin həssas qəlbli, qayğıkeş bir direktor olduğunu açıqladı.

Siracəddin Sultanovun əməyi həm xalq, həm də dövlət tərəfindən layiqincə qiymətləndirilib. Belə ki, bir-neçə dəfə RTŞ, digər rayon təşkilatları tərəfindən "Fəxri fərman"-lara, "Diplom" lara layiq görülmüşdür.

Siracəddin müəllim əsl gənclik həvəsi ilə çalışır. Daim mütaliə edir, dövri mətbuatı izləyir. Necə deyərlər yaddaşını təzələyir.

O, həm də poeziya həvəskarıdır. Siracəddin Odqəlb təxəllüsü ilə "Gülüstan inciləri" almanaxlarında, respublikanın müxtəlif qəzetlərində çoxlu şeirləri və publisistik yazıları işıq üzü görmüşdür. "Gülüstan" elmi-ədəbi məclisinin üzvi olan Siracəddin müəllimin şeirlərində xalqımızın milli ruhu, adət-ənənələrimiz mühüm yer tutur. O, xalq şeirinin formalarına daha çox müraciət edir.

Siracəddin müəllim eyni zamanda qayğıkeş valideyn, gözəl ailə başçısıdır. Üç oğlu və bir qızı vardır.

Siracəddin Sultanov (Odqəlb) ömrünün 60-cı baharında da yorulmadan, gənclik həvəsi ilə çalışır və axtarışlarını davam etdirir.

**Əziz Siracəddin müəllim, Sizi ömrünüzün 60-cı baharı münasibəti ilə təbrik edirik! Ad gününüz mübarək!**

**Şıxəmməd Seyidməmmədov,**
**Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü**

# "Bu gecə gözümdən getmədi Laçın..."



*Zemfira Məhərrəmli*
*yazıçı-publisist*

**Oxucu ruhu təzələyən bədii nümunədən zövq alırsa, əsər estetik həzz aşılayırsa, bu yazarın uğurudur. Bununla yanaşı, mütaliə zamanı oxuduqlarının təsiri altında düşüncələrə dalırsansa, deməli, bu əsər çox dəyərlidir və müəllif öz istəyinə çatıb. Bədii mətndə işlənən söz həm şüurda, düşüncədə, fikrimizdə, həm də hiss və duyğularımızda xəfif bir titrəyiş, ehtizaz yaradırsa, belə əsəri oxumaq insana mənəvi qidadır, dayaqdır, tapıntıdır. Tanınmış şair-publisist, tərcüməçi, folklorşünas İlham Qəhrəmanın ərsəyə gətirdiyi bədii nümunələri hər dəfə oxuyarkən bu fikirlərin doğruluğuna bir daha inanıram. O, duyum, müşahidə qabiliyyəti güclü olan yazarlardandır, incə, zərif lirizmlə süslənmiş məhəbbət şeirləri ilə də tanınır. O, fitrətən şairdir. Ustad M.Şəhriyar demiş: "Şair ola bilməzsən, anan doğmasa şair".**

Uzun müddət düşmən tapdağında qalan Laçının Sus kəndində dünyaya göz açan, ilahi gözəlliyə malik yurd yerinin bənzərsiz təbiətindən ruhu təzələnən, içində bir coşğu yaranan gənc İlham şair olmaya bilməzdi. Doğma Laçının şiş uclu dağlarının, sıldırım qayalarının, yamyaşıl meşələrinin, diş göynədən bulaqlarının vurğunu olan gənc şair qələmə sarılıb qaynar coşğun təbiylə sevgi və təbiət şeirləri yazırdı. Yaradıcılığının ilk dövrlərində yazdığı şeirləri kimi, ömrün müdriklik çağına düşən nəzm nümunələrinin də dili sadə, xəlqi və axıcıdır.

Sonralar şifahi xalq ədəbiyyatı silsiləsindən olan, ağız ədəbiyyatı nümunələrinin toplandığı "Laçın folkloru" kitabı da elə yurd-yuvaya bağlılıqdan işıq üzü görmüşdü.

Dağlar qoynunda qərar tutan Laçın odlara qalananda bu yurd yerimizin ahnaləsi göylərə bülənd oldu. Laçın harayı ağsaçlı, əzəmətli Dəlidağın uca zirvəsinə çatıb əks-səda verəndə kimsə bu acı fəryadı, ah-naləni eşitmədi. Tarixin ayrı-ayrı dönəmlərində digər yurd yerlərimiz kimi, Laçının da başı nə müsibətlər çəkməmişdi. Ötən əsrin sonlarında düçar olduğumuz Birinci Qarabağ savaşı həmin faciələri yurddaşlarımıza bir daha yaşatmışdı. Ermənilərin əzəli torpaqlarımızdan pay umması ilə rəvac verilən canüzücü münaqişə, tüğyan edən qanlı müharibə soydaşlarımızının həyatına kədər, susqunluq, küskünlük gətirmişdi.

Qələm adamları da bu üzüntülü yaşantılardan yan keçməmişdi. İlham Qəhrəman işğal edilmiş yurdu ilə bağlı "Bu gecə evimiz yadıma düşdü" adlı bir şeir yazmışdı:

*Nə vaxtdı sayırıq günləri, ayı,*
*Nə vaxtdı sağ gözüm Zabux çayıdı,*
*Nə vaxtdı sol gözüm Həkəri çayı.*
*O vaxtdan boğazım Çayqovuşandı.*
*Bu da bir gecədi belə yaşandı, ?*
*Bu gecə evimiz yadıma düşdü.*

*Gəzdim dağlarını cığırınacan,*
*Üzdüm yollarında çarığımacan,*
*Qara danamızın axurunacan ?*
*Bu gecə evimiz yadıma düşdü...*
*Bu gecə gözümdən getmədi Laçın.*

Yurd həsrəti ilə qovrulan, yanıb-yaxılan şair heç nə ilə aram olmur, hafizəsində tez-tez Laçınlı günlərinə qayıdır, dağ döşündəki evlərini, gül-çiçəkli çəmənlərini, düzlərdə bitən şehli otları xatırlayır:

*Laçında,*
*sinədəki evimizin*
*çəpər qolları*
*tut dizlərini*
*qucaqlayıb qaldı...*

Şairin Vətən ağrısı ilə yoğrulmuş şeirlərinin əksəriyyətində dədə-baba yurdu, onun şiş ucları buludlara dirənən əzəmətli dağları, boya-başa çatdığı kəndin vüqarlı insanları əsas obraz kimi göz önündə canlanır. İlham Qəhrəman köksünə sığmayan həsrəti, qəribsədiyi el-obasının xiffətini kövrək duyğularla, həzin ahənglə çatdırır. "Tanrı möhlət verə, qismətim ola, qayıdam yenə də çıxam dağlara" deyən şair son nəfəsində belə doğma Laçınını görmək, onun torpağına qarışmaq istəyir:

*Görən nə yazıbdı alnıma Yazan?..*
*Dağlara yazmasa, alnımdan pozam.*
*Bir bulaq üstündə qəbrimi qazam,*
*Qarışam dağlara, axam dağlara.*



İtirilmiş dədə-baba torpaqlarımızın, isti od-ocağımızın düşmən əlində qalması digər soydaşlarımız kimi, laçınlıların da qaçqın-köçkün həyatı yaşaması şairin qəlbini sıxan, düşüncələrinə daim hakim kəsilən hisslər, duyğular idi. Bütün bunlara biganə qalmayan İ.Qəhrəman həmin bəlaları şeirlərində poetik ovqatla nəql edir, 90-cı illər savaşında nəsibimiz olan uğursuzluqlar da onun şair qəlbini ağrıdırdı:

*Müharibə qəribədir,*
*Hər kəs öz vəznində olur,*
*Hər gedən bir işə gedir.*
*Kimi şəkil çəkdirməyə,*
*Kimisi döyüşə gedir.*

İlham Qəhrəman şeirlərinin ovqatına uyarlı sözlər, ifadələr seçir. Şairin nəql etdiyi hadisəni hiss etdirmək məharəti güclüdür. O, bəhs etdiyi həqiqəti içindən, duyğularından keçirərək dilə gətirir. Baş vermiş olayın sanki içindəsən, gerçəkliyi duyur və görürsən. Bu, onun poeziyasının gücüdür. Həm də sözlə hadisəni göz önündə canlandırmaq, təbii görüntü yaratmaq məharətidir. Bu şeirlərin biri digərini təkrarlamır, oxucuya yeni biçimdə və fərqli izhar üslubunda, necə deyərlər, yeni axında çatdırılır.

Bir şəhidin dilindən qələmə aldığı "Borc" adlı şeirini həyəcansız oxumaq olmur. "Daş qalalar bürcüynən, şəhid ömrü borcuynan" deyiblər. Şəhidin dedikləri ağrılı olsa da, yaşadığı həyat və döyüş yolu ürəyimizi qürurla, fəxarət hissi ilə doldurur:

*Səni sıxmalı sinəmə avtomatı sıxdım,*
*Görüşünə çıxmalı yerdə*
*quş qatarıynan gələn güllə qabağına çıxdım.*
*Bu döyüşdü ? kim öldü, kim yaralı çıxdı,*
*Ürəyimdə çırtlamayan sevgi başda idi,*
*amma Vətən ondan irəli çıxdı.*

Vətən naminə canından keçən, qanı Ana torpağa qarışan, şəhadətə yüksələn şəhidin son kəlmələri müəllifin bu şeirdə çatdırmaq istədiyi əsas fikrin, mənanın canını, məğzini təşkil edir:

*Sevgisinə yetişmədiyim,*
*adını bilmədiyim qız,*
*sənə olan borc məni*
*qəbirdə də dinc qoymur.*

Oğullar düşmən çəpəridir, deyirlər. Oğullar dünyaya gələr, Vətən heysiyyətini, məmləkəti, doğma yurd-yuvanı, isti od-ocağı qorumaq üçün. Şair bu fikrin yeni çalarını, izhar etmə çözümünü belə tapır:

*Torpağı alacağımızı*
*əvvəldən bilirdilər,*
*Oğul doğulduğumuzda*
*şəhidlik bahası*
*şirinlik alırdılar.*

Təbi "gah kürətək qızmar, gah da qış kimi ayaz olan" şair, "dünya bir ağ kağız ola, mən də bircə kəlmə yazam: Laçın" deyir. O, hələ illər öncə qələmə aldığı yurd həsrətli şeirini bu misralarla bitirir:

*Sudan çıxan balıq kimi*
*Ağzımı açıb-yumuram.*
*Bir əsgər çıxmır yuxumdan?*
*Əldə bayraq, dildə "Urra, Laçın!"*

Bu misralarda qarşısıalınmaz arzutək gözlədiyimiz, intizarında olduğumuz Qələbə müjdəsini eşidəcəyi günü hətta yuxularında görən şairin istəyi, qalibiyyətimizə inamı ifadə olunub. Zəfər yürüşündə şəhid də olarlar, axı, hər şey Vətən adına, Vətən naminədir. Bütün dünyaya səs salan möhtəşəm Zəfərimizin ünvanı - 44 gün çəkən Vətən müharibəmiz bu həqiqəti bir daha təsdiqlədi. Haqq savaşımıza qatılan oğullar qanlı cəbhələrə döyüş əzmi, ruh yüksəkliyi ilə yollanırdılar.

Şairin təbirincə desək, sanki "niyyət etmişdilər, niyyətləri hasil olumuşdu", intizarını çəkdikləri "həmin gün Allahdan nazil olmuşdu". "Təzə dil açan bülbültək" könülləri nəğmə ilə doluydu. Şeirdə igid oğulların döyüş arzuları belə təsvir edilir:

*İllərin tamarzısıdı,*
*Vətən buyruğa göndərsin.*
*Bağdan, bağçadan ayırsın*
*Yaraqla dağa göndərsin!*

Zəfər müharibəmizə gedən yolda yolüstü rəqs edən şəhid Fədailin xatirəsinə ithaf olunmuş bu bədii nümunədə yurdun igid oğlunun - şairin poetik qəhrəmanının son döyüşü bədii lövhələrlə təsvir olunur:

*Parladı bir qılınc kimi,*
*Gün altında qəmzə qaldı.*
*Ana torpağın üstündə*
*Rəqsi ondan imza qaldı.*

**Qəlbi daim yurd həsrəti, xiffəti ilə çırpınan Laçın dağlarının şair oğlunun da arzusu, istəyi, nəhayət, həyata keçdi. Digər yaşayış məntəqələrimiz, şəhər və kəndlərimiz, azad edilmiş bölgələrimizlə yanaşı, indi Laçın da xoş günlərinə qayıdır. Əsl sahiblərinin hənirtisinə möhtac, el-obamıza aparan, kol-kos basmış yollar indi nəfəsimizlə isinir, işğaldan azad olunmuş yurd yerlərimizdə artıq həyatın nəbzi duyulur, abadlıq, bərpa işləri görülür. İndi İlham Qəhrəman daha çox Zəfər şeirləri yazır.**

## *İsveçrə ölkəni əbədi tərk etmələri üçün dilənçilərə pul ödəyəcək*

**İsveçrənin Bazel-Ştadt kantonunun rəhbərliyi bir də heç vaxt İsveçrəyə dönməmək öhdəliyi götürən avara və dilənçilər üçün Avropanın istənilən ölkəsinə bilet alışının ödənilməsinə qərar verib.**



**Bu barədə İsveçrə mətbuatı yazıb.**

**"20 Minuten" nəşrinin məlumatına görə, kanton rəhbərliyi vətəninə qayıtmaq istəyən hər bir dilənçiyə qatar bileti və ya aviabilet, habelə 20 İsveçrə frankı verməyə hazırdır. Bunun əvəzində şəxsin artıq "ən azı bir müddət" İsveçrəyə dönməyəcəyinə dair sənədi imzalaması lazımdır.**

**Bu öhdəliklərə əməl edilməməsi dərhal deportasiya ilə nəticələnəcək.**

**Qeyd olunur ki, bu təklifdən artıq 31 nəfər istifadə edib.**

**Onlardan 14 nəfər Rumıniya, 7 nəfər Belçika, 7 nəfər Almaniya, 2 nəfər İtaliya və 1 nəfər Fransadandır.**

**MEHRİBAN**

UNUTSAQ, UNUDULARIQ

# Mənim filosof dostum

**Gəncənin İmamzadə məzarlığında tanınmış ziyalı, fəlsəfə elmləri doktoru, professor, dəyərli pedaqoq, müəyyən fəxri adlara və təltiflərə layiq görülmüş Oruc İsmayıl oğlu Abdullayev də ünvanlaşıb. Oruc müəllim Şəmkirin Təzəkənd kəndində boya-başa çatsa da, Gəncə elmi-pedaqoji mühitində pərvəriş tapmışdır. Yaşasaydı 68 yaşı olardı. Çox heyf, amansız ölüm onu iki il bundan əvvəl - mayın 16- də aramızdan apardı...**

Oruc müəllimlə bir kənddə, bir məktəbdə, 10 il bir sinifdə oxumuşuq. O, 1953-cü il yanvarın 9-da, mən isə yanvarın 1-də dünyaya gəlmişik. Unudulmayan uşaqlıq illəri, yaş günlərimizi birlikdə keçirəndə nə qədər qürurlu olurduq. Çox vaxt dərslərimizi bir yerdə hazırlayırdıq. Orta məktəbin yuxarı siniflərində özümüz də bilmədən, o, tarixçi, mən isə jurnalist olmaq həvəsinə düşdük. Beləliklə o, tarixə, mən ədəbiyyata meyl göstərdik, Ümumiyyətlə, Oruc bütün fənləri yaxşı oxuyurdu. Əmisi Rəşid müəllim sinif rəhbərimiz olduğundan "dərslərimə yaxşı hazırlaşmasam, özünün şilləsi bir yana, evə çatan kimi (qonşu idilər) atama deyəcək, o da məni elə tanbeh edəcək ki..." deyə, növbəti dərsi oxuyub-öyrənməsə məktəbə getməzdi.

Orucun atası İsmayıl əmi 1948-ci ildə Qərbi Azərbaycanın Vedibasar bölgəsinin İşıqlar kəndindən deportasiya olunmuşdu, kənddəki üzümçülük sovxozunda çalışırdı. Anası Səltənət xala rayonun Qaracəmirli kəndindən adlı-sanlı "Abdullalar" nəslindən idi. Evdar qadın idi. Hər ikimiz fəhlə ailəsində böyüdüyümüzdən kitab-dan-dəftərdən bərk yapışmışdıq.

### *Orta məktəbi başa vurduqdan sonra*

***yollarımız ayrıldı. Mən ADU-nun Jurnalistika fakültəsinə sənəd qəbulu üçün o vaxt ikiillik staj tələb edildiyindən fəhləliyə getdim, Oruc isə həmin ili H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun Tarix fakültəsinə (indi GDU) qəbul oldu. İlk gündən bəzi tələbə yoldaşlarından fərqli olaraq boş vaxtlarını kitabxanalarda keçirdi, əlavə ədəbiyyatlar axtarışında oldu. İllərlə arzusunda olduğu bu ixtisasın yaxşı bilicisi olmaq üçün mühazirələrdə diqqətsizliyə yol vermədi, seminarlarda hazırlıqlı olması ilə seçildi.***

Gəncənin tanınmış ziyalılarından tarix elmləri doktoru, professor Həsənbala Sadıqovun dediklərindən: - Orucun tələbəliyini yaxşı xatırlayıram, universitetdə seçilən tələbələrdən olub. Çox çalışqan idi, təkcə auditoriyada yox, institutdan kənarda da, respublikamızda və dünyada baş verən tarixi hadisələrlə bağlı onu maraqlandıran, düşündürən sualları təkrar-təkrar soruşardı, cavabı aydınlaşdırıb tam öyrənərdi. İnstitutun ictimai işlərində fəal iştirak edən, müəllim və tələbələrlə sıx ünsiyyət qurmağa çalışan gənc idi. Onun savadı, biliyi, bacarığı, hadisələrə çevik və obyektiv reaksiyası harada işləsə özünü biruzə verməli idi. Nə xoş ki, o, bu potensialı elmə, müəllimliyə yönəltdi.

***Oruc 1976-cı ildə institutu yaxşı və əla qiymətlərlə bitirəndə, gənc mütəxəssis kimi təyinatı vaxtı ilə oxuduğu S.Vurğun adına Təzəkənd kənd orta məktəbinə verilmişdi. Deyirdi ki, ilk dəfə əlimə jurnal götürüb "Müəllimlər otağı"ndan dərs deyəcəyim sinfə doğru addımlayanda ürəyim köksümə sığmırdı, sanki bütün arzularıma çatdığımı hiss edirdim. Orucun bu uğuruna vaxtilə ona dərs deyən müəllimlərimiz əməklərinin bəhrəsini görəndə çox sevinirdilər. Oruc müəllim isə, bütün bunlardan üzərinə daha böyük məsuliyyət düşdüyünü hiss edirdi.***

### *Tələbəlik illərində*

yuxusuz gecələr hesabına əldə etdiyi elmi-nəzəri bilikləri şagirdlərə necə həvəslə aşılaması, məktəbin ictimai-siyasi tədbirlərində fəallığı, təşkilatçılıq bacarığı diqqət çəkirdi. Hər işə ciddi və tələbkarcasına yanaşırdı, təlim-tərbiyə məsələlərində güzəştə getməyi xoşlamırdı. Onun bu xüsusiyyətlərini nəzərə alan rayon Təhsil Şöbəsinin rəhbərliyi növbəti tədris ilində Oruc müəllimi məktəb direktorunun təlim-tərbiyə işləri üzrə müavini tövsiyə edəndə heç kəs etiraz etmədi, əksinə hamı məmnun qaldı. O illərdə mən BDU-nun Jurnalistika fakültəsində təhsil alırdım, bayram və tətil günlərində rayona gedəndə mütləq görüşərdik. Söhbətlərindən hiss edirdim ki, fəaliyyətində nəzəriyyə ilə təcrübənin vəhdətindən qazandığı potensial hesabına daha böyük arzulara, əməllərə körpü salmaq, xüsusən də milli mentalitetimiz və qədim adət-ənənələrimizlə elmi şəkildə dərindən maraqlanmaq istəyir.

Onun müəllimliyə başlayandan az sonra ürəyində baş qaldıran bu istəyi tezliklə reallığa çevrildi. Azərbaycan Dövlət Universitetinin (indi BDU) aspiranturasına daxil oldu. O, aspirant, mən tələbə, demək olar ki, ayda bir-ikiayda bir görüşürdük. Bu ərəfədə Oruc Abdullayevin respublikamızın nüfuzlu qəzet və jurnallarında milli adət-ənənələrimiz, unudulmaqda olan el şənlikləri və tarixi bayramlarla bağlı araşdırma məqalələri görünməyə başladı. Bu yazılar elmi dairədə diqqət çəkdi, oxucular və tədqiqatçılar tərəfindən rəğbətlə qarşılandı. Az sonra əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, mərhum professor Həsən Şirəliyevin elmi rəhbərliyi ilə namizədlik dissertasiyası üzərində işləməyə başladı. 1983-cü ilin noyabrında namizədlik, bundan bir neçə il sonra isə AMEA-nın Fəlsəfə İnstitutunda doktorluq işini müdafiə edərək, fəlsəfə elmləri doktoru, 1996-cı ildə isə professor elmi adına layiq görüldü. Bu uğurlar onun yaradıcılıq coğrafiyasını daha da genişləndirməyə zəmin yaratdı. Arxivlərə gedib-gəlməyi və axtarışlarını bir az da intensivləşdirdi. Nəticədə növbəti ildə "İctimai münasibətlər sistemi və adət-ənənələr" (Bakı, "Elm" nəşr, 1998) kitabı işıq üzü gördü. Bu kitabda Oruc müəllim sosial fəlsəfənin aktual problemlərindən bəhs edən ictimai münasibətlərdə adət-ənənələr arasındakı qarşılıqlı bağlantıları tədqiqata cəlb etmişdi.

***Bununla yanaşı növbəti illərdə nəşr olunan "Sosial fəallıq, yeni adət-ənənələr", "Cəmiyyətin siyasi sistemi", "İctimai, iqtisadi formasiyaların strukturu və inkişafı (H.T.Budaqovla müştərək), "Fəlsəfədə insan problenmi" (M.Cəlilov və S.İbrahimovla birlikdə) və s. əsərləri elmi ictimaiyyətdə, gənc tədqiqatçı və bu kimi mövzuların marağında olanlar tərəfindən rəğbətlə qarşılanmışdı. Bu fikirləri professorun arxivi ilə tanışlıq zamanı ünvanına gəlmiş çoxsaylı oxucu məktubları və haqqında dərc edilən resenziyalar da belə deməyə əsas verir.***

Oruc müəllim 1988-ci ildən pedaqoji taleyini qədim Gəncə şəhərindəki Azərbaycan Texnologiya Universiteti ilə bağlamışdır. Sıravi müəllimlikdən universitetin fəlsəfə və elmi kommunizm, fəlsəfə və politologiya, 2002-ci ildən fəlsəfə və tarix kafedrasının müdiri, 1991-ci ildən 2011-ci ilə kimi tərbiyə-humanitar məsələlər üzrə prorektor vəzifəsinədək yüksəlmişdir. Əməkdar jurnalist Faiq Qismətoğlunun Oruc müəllimin həyat yolundan bəhs edən məqaləsində deyildiyi kimi, o, hansı vəzifədə işləyibsə, o vəzifəni ucalığa yüksəldib, vəzifə onu deyil, o vəzifəni hörmətə mindirib.

Gənclərin cəmiyyətə layiq elmli, savadlı, vətənpərvər və milli ruhda böyüməsində əsl alim-pedaqoq kimi əlindən gələni əsirgəməmişdir. Onun rəhbərliyi və ziyalı qayğıkeşliyi sayəsində onlarca gənc elmlər namizədi, elmlər doktoru kimi şərəfli ada layiq görülmüşdür. Yetişdirdiyi alimlər ölkəmizin elmi-tədqiqat institutlarında, ali məktəb və liseylərdə, təhsil müəssisələrində elmi və pedaqoji fəaliyyətlərini uğurla davam etdirirlər. Filosof alim milli adət-ənənələrimizlə bağlı iki monoqrafiyanın, iki tədris vəsaitinin, iki metodiki göstərişin, 200-dən çox elmi-kütləvi məqalənin müəllifidir. Bu məqalə və əsərlərin ana xəttini Ulu Öndər Heydər Əliyevin milli adət-ənənələrimizin qorunub-saxlanılması və gələcək nəsillərə çatdırılması ilə əlaqədar tövsiyələri, insan amili ilə bağlı dəyərli fikirləri, milli dövlətçiliyin müdafiəsinə çağırış və azərbaycançılıq ideyalarının təbliği təşkil edir.



### *Oruc müəllimin tədqiqatları,*

***elmə gətirdiyi yeniliklər respublikamızdan kənarda da alim və mütəxəssislər tərəfindən yüksək qiymətləndirilib. 1998-ci ilin mayında qardaş Türkiyənin Ərzurum şəhərində Ərzurum Universitetinin yaranmasının 40 illiyinə həsr edilmiş "İnsan fəlsəfəsi" konqresində Azərbaycandan olan alim və nümayəndələr arasında professor Oruc Abdullayev də var idi. Onun bu mövzuda etdiyi məruzə iştirakçılar tərəfindən rəğbətlə qarşılanmışdır. Bu dəyərli araşdırmaya görə universitetin fəxri professoru seçilmişdir. 2001-ci ildə "Vektor" Beynəlxalq şirkətinin keçirdiyi sorğuya əsasən, "Azərbaycanın 100 görkəmli alimi" heyətinə seçilənlərdən biri də professor Qruc Abdyullayev olmuşdur. Bundan başqa, 1998-ci ildə Nyu-York Beynəlxalq Akademiyasının, 2003-cü ildə isə Rusiya Beynəlxalq Ekologiya və Həyat Fəaliyyətinin Təhlükəsizliyi Akademiyasının üzvləri Oruc Abdullayevi yekdilliklə özlərinin həqiqi üzvü seçmişlər. Gənc filosofun elmi nailiyyətləri və pedaqoji fəaliyyəti barədə Azərbaycan Milli Ensklopediyasında da (2009, I cild, səh.36) dolğun məlumat verilmişdir.***

Son illər səhhətində yaranmış problemlə əlaqədar Oruc müəllim Bakıya nadir hallarda gəlirdi. Odur ki, hər dəfə zəngləşəndə bərk-bərk tapşırırdı: "Rəhman, payona tərəf gələndə, onsuz da Gəncədən keçirsən, məni görməmiş keçmə, haa..."

### *Dostumun evi*

***Gəncədə köhnə Yevlax avtovağzalından qərbdə, Spartak stadionunun yaxınlığında idi. Yerli memarlıq üslubunda tikilmiş mülkün alt qatında Oruc müəllimin məxsusi otağında ikimizdən başqa heç kim olamadan, saatlarla söhbətləşərdik, məktəb illərimizi, uşaqlıq xatirələrimizi kino lenti kimi göz önündən keçirərdik, ən çox da Telmanı, Əbilini, Ramizi, Eldarı, Bəxtiyarı, Afiqi, Maarifi, Əlini və digərlərini dönə-dönə xatırlayardıq. Hətta həkimin qadağasına baxmayaraq, uşaq vaxtı oğrun olaraq aradabir ikimizə bir siqaret çəkdiyimiz anları yada salaraq, xudmani otaqda "ə, bu, o vaxtkılardan döyül" deyə, adama bir "Molbra" da tüstülədərdik. Çayımızı təzələmək üçün dəhlizə çıxanda həyətdə göz oxşayan gül və dekorativ kolları göstərərək, - belə olmağıma baxma, qəzetdən, kitabdan başım ayılan kimi bu bağçada qurdalanıram, gör nə qəşəng güllər açıb, - deyirdi.***

Oruc müəllimi tanıyanlar yaxşı bilir, o, həm də gözəl ailə başçısıdır, tələbəlik illərində sevib-seçdiyi Emma xanımla ailə həyatı qurub. Xatırladım ki, Emma xanım Şəmkirin Əliyaqubli kəndindən tanınmış və gözəl bir nəslin övladıdır. Babalardan qalma misaldır: Taylı tayın tapar, o da həyat yoldaşı kimi tarixçidir, Gəncə Dövlət Universitetində Tarix kafedrasının müdiri. tarix elmləri üzrə fəlsəfə doktorudur. Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə Əməkdar müəllim fəxri adına layiq görülüb.

Ailəni yaxından tanıyanları məmnun edən həm də odur ki, bu evdə, bu ocaqda halal müəllim çörəyi, müəllim təlim-tərbiyəsi ilə cəmiyyətə nümunə kimi göstərilən dörd övlad - iki qız, iki oğlan uşağı boya-başa çatıb. Ailənin ilki Aynur xanım Gəncədə Azərbaycan Dövlət Aqrar Universitetində Ümumi əkinçilik, genetika və seleksiya kafedrasının müdiri, kənd təsərrüfatı elmləri üzrə fəlsəfə doktorudur. Bacısı Vəfa xanım Azərbaycan Dövlət Tibb İnstitutunu (indi ATU) bitirib, Bakıda yaşayır. Respublika Elmi-Tədqiqat Mamalıq və Gnikologiya İnstitutunda mama-gnikologiya şöbəsinin müdiri, tibb elmləri üzrə fəlsəfə doktorudur.

### *Ailənin oğul övladları*

Müşfiq və Rəşad BDU-nun Hüquq fakültəsini bitirib. Hər ikisi bu gün ölkəmizdə sabitliyin və əmin-amanlığın qorumasında var qüvvə ilə çalışır. Müşfiq respublika prokurorluğunda polisə nəzarət idarəsinin prokuroru vəzifəsində çalışır. Rəşad isə respublika DİN-nin Gəncə şəhər BPİ-nin narkotiklərlə mübarizə bölməsinin rəisidir.

***Övladların dördü də gözəl ailə sahibidir. Oruc müəllimin, Allah nəzərdən saxlasın, sayını dəqiq deməyəcəm, amma 10-dan çox nəvəsi var. Onların hamısı, eləcə də bu ailənin yaxınları, Oruc müəllimin dostları, orta məktəb yoldaşları istər Gəncədə, istər Şəmkirdə, istərsə də Bakıda hər il mayın 16-da onun anım gününü qeyd edirlər.***

Əziz dostum Oruc müəllim, sən yada düşəndə Müşfiqlə, Rəşadla zəngləşirəm. Onlar bilmirlər ki, bu zəngin məğzi nədədir, amma bir dəfə Müşfiqə eşitdirmişəm, onların hər ikisinin səsi eynən sənin səsin, sənin danışığının ahəngindədir. Səsin onların səsində yaşadığı kimi, onların əməllərində sənin verdiyin ali tərbiyə - milli dövlətçiliyə nümunəvi xidmət, vətənpərvərlik və insanlara qarşı xeyirxahlıq durur. Ən başlıcası isə onlar sənin kimi, Ulu Öndər Heydər Əliyev ideyalarının layiqli davamçısı Prezident İlham Əliyevin sərəncamlarının, tövsiyə və tapşırıqlarının icrasını layiqincə yerinə yetirməkdən qürur duyurlar. Bir sözlə, sənin elmə və müstəqil Azərbaycan dövlətçiliyinə olan istəyini, müqəddəs ailə ənənələrini uğurla, şərəflə davam etdirirlər.

**Ruhun şad, məkanın behiştlik olsun, mənim filosof dostum!**

**Rəhman SALMANLI**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

№ 49 (2230) 6 may 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# TARİXİ GERÇƏKLİK GÖZ ÖNÜNDƏDİR

**30 ilə yaxın bir zaman kəsiyinin bizim üçün hər anına yazılmış Dağlıq Qarabağ problemi artıq tarixin arxivinə verilsə də, amma maraqlı tərəflər, xüsusilə ermənipərəst qüvvələr bu məsələni yenidən alovlandırmağa, guya onu "ədalətli" həll etməyə cəhd göstərirlər. Ən yüksək səviyyələrdə dilə gətirilən bu məsələ görünür Cənubi Qafqazda, qaynar nöqtəsinin saxlamasında, problemin uzun ömürlü olmasında maraqlıdılar. Ona görə də bu qüvvələr hər bir məqamda, hər bir fürsətdə müxtəlif vasitələrdən istifadə etməklə problemi diriltməyə, onu gündəmə çevirməyə çalışırlar. Amma unudurlar ki, Azərbaycan prezidenti birmənalı şəkildə dünyaya bəyan edib ki, "Artıq Dağlıq Qarabağ termini də yoxdu, problemi də yoxdu! Bu problem birdəfəlik həll olunub və Azərbaycan öz ərazi bütövlüyünü təmin edibdi!"**

Bəli, Ali Baş Komandanımızın, Azərbaycan prezidentinin bu qətiyyətli mövqeyi ortada olduğu halda, ATƏT-in Minsk qrupunun həmsədrlərinin, xüsusilə Fransanın ikili standartlardan çıxış edərək yenidən Azərbaycan və Ermənistan tərəflərini, eləcə də qondarma qurumun rəhbərliyini bir masa ətrafına dəvət etmək istəyi çox gülünc bir cəhddi. Ona görə ki, Azərbaycan 44 günlük Böyük Vətən Müharibəsində zəfər çaldı, bayrağımız Şuşada, Hadrutda, eləcə də işğaldan azad olunmuş bütün ərazilərimizdə dalğalanır, Ermənistan-Azərbaycan sərhəddi ordumuzun nəzarəti altındadı, dövlət sərhədlərimizi özümüz qoruyuruq. Bütün təxribatlara baxmayaraq, Azərbaycan əsgəri öz mövqeyində dayanıb və xalqımız da ona güvənir. Son vaxtlar düşmən tərəfi bu və ya digər formada təxribat etmək cəhdləri də ölkə rəhbərliyinin, həmçinin Ordumuzun diqqət mərkəzindədi və diqqətindən yayınmayıb. Hətta Azərbaycan prezidenti cənab İlham Əliyev, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva, eləcə də Heydər Əliyev Fondunun birinci vitese-prezidenti Leyla xanım Əliyeva işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonlarına son səfərləri zamanı Ali Baş Komandanımız erməni təxribatlarına da konkret münasibətini ifadə etmişdi. Cənab Ali Baş Komandan vurğulamışdı ki, "Düşmən tərəf bu və ya digər formalarda yenidən nələrsə etməyə cəhd göstərir. Onların bu təxribat cəhdləri tərəfimizdən çox ciddi şəkildə izlənir və burdan da bəyan edirəm ki, qoy onlar dəqiq bilsinlər ki, biz bundan sonra da onlara daha güzəşt etməyəcəyik. Bütün təxribatlara həmin an yerindəcə cavab veriləcəkdi. Onların bütün cəhdləri dəmir yumuruqla qarşılanacaq, müzəffər Azərbaycan Ordusunun gücüylə məhv ediləcəkdi. Birdəfəlik yadda saxlamaq lazımdır ki, biz artıq bu problemə son qoymuşuq. Üçtərəfli bəyanatla məsələ öz həllini tapıb və bundan sonar Ermənistan əgər bizimlə qonşuluq, əməkdaşlıq edərsə, bu, onların özləri üçün yaxşı nəticələnə bilər. Əks halda, Azərbaycan üçtərəfli bəyanatda göstərildiyi kimi bütün məsələləri öz istədiyi kimi həll edəcəkdi".





Bəli, bugünlərdə ABŞ prezidentinin soyqırımla bağlı işlətdiyi ifadə ermənipərəst qüvvələrə müəyyən müsbət impulslar verib və həmin şovinist güclər müxtəlif ölkələrdə azərbaycanlılara və türklərə qarşı təxribatlar törətmiş, hətta ölkələrimizin bayraqlarını da yandırmaqdan çəkinməmişdi. Mətbuatdan da məlum olduğu kimi, türklərə və azərbaycanlılara məxsus obyektlərə hücumlar edən həmin obyektləri talamağa, dağıtmağa cəhd edən ermənilərin bu vandal hərəkətləri bir daha göstərir ki, faşist xislətli düşmən işğal altına düşmüş ərazilərimizdə 30 ilə yaxın törətdikləri cinayətlərlə kifayətlənməyiblər. Bununla bağlı Azərbaycan prezidenti cənab İlham Əliyev xarici media təmsilçilərinə müsahibə zamanı bildirmişdi ki, "Bu gün Ağdam, Füzuli, Cəbrayıl, eləcə də digər işğal altında olmuş rayonlarımız tamamilə Yer üzündən silinib. Burada törədilən cinayətlər faşistlərin etdiklərindən də dözülməz və pisdi. Ona görə də indi Ağdam Qafqazın xorasiması adlandırılır. Bunu hər kəs gəlib öz gözləri ilə görür və görə də bilər. Bizim əsrimizdə quldarlıq, feodal təfəkkürü ilə törədilən bu cinayətlərə görə, düşmən cavab verməlidir və verəcəkdi də. Biz bütün lazımi sənədləri artıq toplayıb aidiyyəti qurumlara təqdim edəcəyik. Bütün dünya törədilmiş cinayətlərin cəzasız qalmadığının şahidi olacaqdı.

Bəli, Azərbaycan prezidentinin artıq dünya mediasında tirajlanan müsahibələrində, eləcə də prezident köməkçisi, Azərbaycan Prespublikası Prezidentinun Adminstrasiyasının xarici məsələlər şöbəsinin müdiri Hikmət Hacıyevin, həmçinin xarici işlər naziri Ceyhun Bayramovun, eləcə də Heydər Əliyev Fondunun və diaspora təşkilatlarımızın davamlı şəkildə apardıqları uğurlu təbliğat təqdim etdikləri tarixi faktlar indi dünyanın ikili standartlarına qarşı yeni bir cəbhənin açılmasıdı.

Bu cəbhə isə ədalətin, haqqın cəbhəsidi. Elə ölkəmizə səfər edən xarici dövlətlərin rəhbər şəxslərin yüksək çinli məmurları da məhz işğaldan azad olunmuş ərazilərə baş çəkir, burada törədilmiş cinayətləri öz gözləri ilə görüb ermənipərəst qüvvələrin yalançı göz yaşlarına artıq inanmırlar. Deməli, Azərbaycan prezidentinin yürütdüyü Ulu Öndərimizin özülünü qoyduğu bu uğurlu xarici siyasət artıq dünyaya sözün bütün mənalarında həqiqət dərsi keçir.

Bu dərsin də mənası, yozumu Azərbaycanın 44 günlük Böyük Vətən Müharibəsində birbaşa təsdiqini tapdı. Hər kəs gördü, şahidi oldu və anladı ki, Azərbaycan xalqı, Azərbaycam Ordusu öz ərazi bütövlüyünü bərpa etmək üçün bir yumruq kimi birləşdi. Ayrı-ayrı güclərin, siyasi liderlərin cəhdlərinə, təyziqlərinə, müdaxilə etmək istəklərinə Azərbaycan Ordusunun Ali Baş Komandanı birmənalı şəkildə yol vermədi. Və vurğuladı ki, "Bizim heç kimin torpaqlarında gözümüz yoxdu. Biz öz torpaqlarımızda vuruşub öz torpaqlarımızı işğaldan azad edirik. Biz uzun zaman aparılan danışıqların mənasız olduğunu, BMT-nin 4 qətnaməsinə əhəmiyyət verilmədiyini tam öyrənəndən sonra ordumuzla, gücümüzlə həmin qətnamələrin icrasını da təmin etdik, torpaqlarımızı da azad etdik!".

Bəli, bu günlərdə ölkəmizdə yenicə fəaliyyətə başlayan qardaş Türkiyənin böyük elçisi Cahit Bağcının etimadnaməsini qəbul edərkən Azərbaycan prezidenti vurğuladı ki, "Biz torpaqlarımızı işğaldan azad etməyə başladığımız ilk andan qardaş Türkiyənin, mənim qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanı yanımızda gördük. Onların hər an verdiyi dəstək bizi ruhlandırdı. Biz qardaş olaraq həmişə bir yerdə olmuşuq, bundan sonar da biz yerdə olacağıq. Heç kim də bu qardaşlığa xələl gətirə bilmər. Bunu bütün dünya bilir. Siz də öz vətəninizə xoş gəlmisiniz!".

**Bəli, az-çox dünyagörüşü, siyasi anlayışı və məntiqi olan hər kəs bu sözlərdən sonar Azərbaycanın və Türkiyənin öz haqqını qorumaq yolunda, öz iqtisadi, siyasi, hərbi qüdrətini artırmaq yolunda birgə addaımladığını yəqin ki, anlaya bilər. Bu da onu göstərir ki, artıq dünyanın siyasi arenasında Türkiyə-Azərbaycan birliyi var və öz sözünü deməyə qadirdi. Bu birlik də Azərbaycan, Ermənistan və türklərə qarşı erməni təbliğatına qarşı mükəmməl bir gücdür, silahdır. Bunu anlayanlar yəqin ki tarixi gerçəklikdən nəticə çıxarıb, dərs götürəcəklər.**

*Əbülfət MƏDƏTOĞLU*

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



*ZAKİR BAYRAMLI*

## *KÖNLÜM YAŞAMAQ İSTƏYİR*

*Ay mənim sevdalı, nəğməli könlüm,*
*Əbəsdir həyatda qalmaq istəyin.*
*Kimsəyə göz yumub, yan keçmir ölüm,*
*Tanrı qədərincə verir dəstəyin.*

*Ömrün qürub çağı, toran vaxtıdır,*
*Ruhum mələklərdən xəbər gözləyir.*
*Yaşımın yorulan, duran vaxtıdır,*
*Tənim ehtiyatla, yavaş gəz deyir.*

*Ötüb çal-çağırlı, xürrəm illərim,*
*Yüngül,qıvraq idim, "ağırlaşmışam".*
*Gurlamır şəlaləm, coşmur sellərim,*
*Sığınıb məcrama, fağırlaşmışam.*

*İskəndər dolaşdı, gəzdi dünyanı,*
*"Zəmzəm"in sirrini aça bilmədi.*
*Hirsindən tapdadı, əzdi dünyanı,*
*Ölümdən yayınıb, qaça bilmədi.*

*Əlbəttə, şirindir, gözəldir həyat,*
*Yaşamaq əbədi olsa, lap əla.*
*Bu, adi xəyaldır,arzudur heyhat,*
*Xəyallar gerçəyə bənzəmir, əsla.*

*Ay mənim yaşamaq istəyən könlüm,*
*Ruhum heç istəməz itirsin səni.*
*Mənə bu həyatda qal deyən könlüm,*
*Tanrı istəyinə yetirsin səni.*

## *DÜNYA VƏ MƏN*

*"Yol" başladım bir ananın bətnindən,*
*Gəlib çıxdım dünya adlı məkana.*
*Agah oldum bu "əsərin mətni"ndən,*
*Qədəm qoydum yetmək üçün ərkana.*

*Dünya məni sakin etdi özünə,*
*Məndən əvvəl gələnlərə qarışdım.*
*Qulaq asdım, əməl etdim sözünə,*
*Nizamını pozmamağa çalışdım.*

*Uşaq ikən anam tutdu qolumdan,*
*Yeniyetmə vaxtı özüm dikəldim.*
*Gəncliyimi azdırmadım yolundan,*
*Aydan-aya, ildən-ilə yüksəldim.*

*Tez öyrəndim mən dünyanın "dərsi"ni,*
*Hər tövrünə, hər cövrünə alışdım.*
*Yaşamadım xoş günlərin tərsini,*
*Günlərimdən zövq almağa çalışdım.*

*Mən ömrümü bənd etmədim kədərə,*
*Çox niskili həyatımdan itirdim.*
*Qismətimi razı saldım qədərə,*
*Niyyətimi mənzilinə yetirdim.*

*Dünya fani, vəfasızdır,- deyirlər,*
*Tərk etmək də istəmirlər dünyanı.*
*Nemətini, sərvətini yeyirlər,*
*Görən varmı bu dünyadan doyanı?*

*Dünya mənim dünyam deyil, bilirəm,*
*Cəmi yetmiş kiloluğam yükündə.*
*Mən dünyadan necə gedim, bilmirəm,*
*Yetmiş ildir köç salmışam mülkündə.*

## *TƏBİƏT ETÜDLƏRİ*

*O dağ sənin, bu dağ mənim, gəl gəzək,*
*Yamaclardan yovşan yığaq, gül üzək.*
*Qayalarda dırnaq tökək, diz əzək,*
*Dolam-dolam dağ belinə haylanaq.*
*Dolaylardan zirvələrə boylanaq.*

*Ana südü, dağ çiçəyi məlhəmdir,*
*Buz bulaqlar "zəm-zəm" suyla bahəmdir,*
*Əzəl gündən dağla insan məhrəmdir,*
*Qorxutmasın səni yalçın qayalar.*
*Hamarlanıb bizə pillə olarlar.*

*Qayalar boz, sərt üzüdür dağların,*
*Zirvələrdə ərimi yox ağ qarın.*
*Qayğısı, həm baxımı var bağların,*
*Baxımsız bağ bir gün dönüb dağ olar.*
*Verməz barın, üzümüzə ağ olar.*

*Hər an isti, mülayimdir aranlar,*
*Qızmar yayda sərinlikdir ormanlar.*
*Təbi təmiz təbiətdir olanlar,*
*Yaylağı da, qışlağı da bizimdir.*
*Hansı səmtə yol götürsək izindir.*

*O düz sənin, bu düz mənim, qaçışaq,*
*At oynadaq,cıdır açıb yarışaq.*
*Ən yaxşısı, vətən üçün çarpışaq,*
*Dağlarını, düzlərini qoruyaq.*
*Yad əllərdə, yad ellərdə qoymayaq.*

## *MƏN BİR ŞAİR DOĞULMUŞAM*

*Təbim coşdu, daşdım yenə,*
*Söz səddimi aşdım yenə.*
*Elə bilmə çaşdım yenə,*
*Söz odunda qovrulmuşam.*
*Mən bir şair doğulmuşam.*

*Dinlə məni, sözümə bax,*
*Sən sözümdə düzümə bax.*
*Sevgi dolu gözümə bax,*
*Sənə çoxdan vurulmuşam.*
*Mən bir şair doğulmuşam.*

*Məni sözlə bələyiblər,*
*Ruhuma söz çiləyiblər.*
*Bir az narın ələyiblər,*
*Zərrə-zərə yoğrulmuşam.*
*Mən bir şair doğulmuşam.*

*Sinəm sözlər diyarıdır,*
*Söz ömrümün meyarıdır.*
*Hələ ömrüm tən yarıdır,*
*Zənn eləmə yorulmuşam.*
*Mən bir şair doğulmuşam.*

*Söz çıxardıb başa məni,*
*Sözlə gətir cuşa məni.*
*Salma dağa-daşa məni,*
*O yerlərdə çox olmuşam.*
*Mən bir şair doğulmuşam.*

*Başı qarlı, uca dağam,*
*Toz-torpaqdan çox uzağam.*
*Qalx zirvəmə, gör nə ağam,*
*Təmizlənib sovrulmuşam.*
*Mən bir şair doğulmuşam.*

*Qoyma təbim, odum sönə,*
*Aç çöhrəni, göstər mənə.*
*Sözdən çələng hörüm sənə,*
*Vəsfin üçün çağrılmışam.*
*Mən bir şair doğulmuşam.*

## *TƏSƏLLİ*

*Ağrılarım çoxalsa da kürəkdə,*
*Hələ eşqin odu qalıb ürəkdə.*
*Çox şükür ki, gəzdirmirlər xərəkdə,*
*Ayaqdayam,bədən həmin bədəndir.*
*Gəl soruşma bu həyacan nədəndir.*

*Elə bilmə itirmişəm yerişi,*
*Axtarıram çıxış ilə girişi.*
*Hələ özüm həll edirəm hər işi,*
*Tanrı daim bizə kömək edəndir.*
*Gəl soruşma bu həyacan nədəndir.*

*Yaş ötsə də hələ həddi aşmayıb,*
*Könlüm ən son nəğmələrin qoşmayıb.*
*Ömrüm qopub məhvərindən daşmayıb,*
*Ümidlərim harayıma yetəndir.*
*Gəl soruşma bu həyəcan nədəndir.*

*Zakir dünya geniş, açıq pəncərə,*
*Çox baxsan da sanma yolun döndərə.*
*Vermə nahaq günlərini kədərə,*
*Bu dünyaya gələn bir gün gedəndir.*
*Gəl soruşma bu həyəcan nədəndir.*



*Ələsgər ƏLİOĞLU*

# BALALARA HƏDİYYƏ

## XARIBÜLBÜL

*Xarıbülbülün üstə,*
*Uçub qondu bir bülbül.*
*Uzaqdan seçilmədi,*
*Bülbüllə xarıbülbül...*

## CIDIR DÜZÜNDƏ...

*Gedib çıxmaq istəsən,*
*Dostum,Cıdır düzünə:*
*Sən bir Qarabağ atı,*
*Tapmalısan özünə.*
*İşləri korlayarsan*
*Başqa at tapsan əgər.*
*Onda Cıdır düzündən,*
*Çatmaz sənə bir nəmər...*

## YEDDİMƏRTƏBƏLİ YOLLAR

*Şuşa-Laçın yolları,*
*Keçir neçə dolaydan.*
*Qarşısına çıxır hey,*
*Gah günəş, gah çən-duman...*
*Şuşa-Laçın yolları,*
*Dağların yaxasına,*
*Dolanır yeddi kərə.*
*Yeddiqat da deyirlər,*
*Adına buna görə...*
*Şuşa-Laçın yolları,*
*Gözəllik təməlidir.*
*Bu yollara baxın siz,*
*Yeddimərtəbəlidir...*

## LAÇIN MEŞƏLƏRİNDƏ

*Laçın meşələrində*
*Vardır neçə cür heyvan.*
*Tülkü,çaqqal, canavar,*
*Oxlu kirpi, boz qaban...*
*Heyvanların adını*
*Sayırıq...*
*Gülür Baxış:*
*"Bu yaxınlara kimi,*
*"Saqqallılar" da varmış!..*
*Deyirlər hamısının*
*Başı möhkəm əzilib.*
*Meşələrin qoynundan*
*Daha kökü kəsilib!"*

## ÇÖRƏK MUZEYİ

*Şəhərimiz Ağdamda,*
*Çörək muzeyi vardı.*
*Uşaqlar da həvəslə,*
*Gəlib ona baxardı...*
*Çörəyimizi yeyib,*
*Suyumuzu içənlər,*
*Dağım-dağım dağıtdı,*
*Bu muzeyi bir səhər.*
*Deməyin ki, döyüşdə,*
*Yağılar bizi uddu.*
*Axır onları çörək,*
*Həm "itiqovan" tutdu...*

## ŞUŞA QALASI

*Bu qalanı ucaldan,*
*Pənahəli xan olub.*
*Bu qala yağıların,*
*Qabağını çox alıb...*
*Bu qala ərənlərin,*
*Daşlaşmış sərt sözüdü.*
*Mazğalları tarixin*
*İti görən gözüdü.*

*Bu qalanın hər bürcü,*
*Düşmən gözünə girib.*
*Bu qalanı daşla yox,*
*Zaman qeyrətlə hörüb.*

## İSA BULAĞI

*Qarabağa nemətdir,*
*Bizim İsa bulağı.*
*Yayılıbdı aləmə,*
*Onun səsi-sorağı.*
*İsa adlı bir kişi,*
*Şuşada çox at çapıb...*
*Meşəliyin içində*
*O, bu bulağı tapıb.*
*İçib şərbəttək sudan,*
*Sönüb yanğısı, odu...*
*Elə onun adıyla,*
*Qalıb bulağın adı.*
*Bu gün də susuzlasan,*
*Bulaq çıxar qarşına.*
*Qonaq-qaranı bir-bir,*
*Çəkib yığar başına...*

## ALT BUDAĞL KƏSMİŞDİ...

*Dəhrə götürüb Turqut,*
*Dırmaşmışdı qovağa.*
*Başlamışdı həvəslə,*
*Ağacı daramağa.*

*İşin tən yarısında,*
*Oğlan yaman çaşmışdı.*
*Ölçüb-biçməmişdi heç,*
*Fikri bərk dolaşmışdı...*

*Üst budaqda dayanıb,*
*Kəsmişdi alt budağı.*
*İndi düşə bilmirdi,*
*O, ağacdan aşağı...*

*Çox baxdı ora-bura,*
*Onu fikir götürdi.*
*Duyuq düşdü babası,*
*Nərdivanı gətirdi...*

## TULLANMAQ ÖYRƏDƏN ARX

*Bir arx keçir*
*Turqut gilin*
*Evlərinin*
*Arxasından.*
*Tullanmaqda*
*Birincidir*
*Turqut hər vaxt,*
*Turqut hər an...*
*Axşam-səhər*
*Arxın üstdən*
*Tullanır o.*
*Çöl-çəməni,*
*Gəzir elə,*
*Dolanır o.*
*Tullanmaqda*
*Bir yaşıdı,*
*Bir tay-tuşu*
*Çatmaz ona.*
*Uzunluğa*
*Tullanmağı*
*Arx öyrədib*
*Bu oğlana...*

# Bakı məktəbləri arasında yeni layihəyə start verilib

**Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) və ASAN radionun birgə təşkilatçılığı ilə "Mənim məktəbim" layihəsinə start verilib.**



Trend-in məlumatına görə, layihənin əsas məqsədi paytaxt məktəblərinin yığcam fəaliyyət hekayələri əsasında ayrı-ayrı təhsil müəssisələri barədə məlumatları daha geniş auditoriyaya təqdim etməkdən ibarətdir.

**Qısa radioçarxda məktəblərin inkişaf tarixinin maraqlı məqamları, uğurları və seçilən məzunları haqqında dinləyicilər məlumatlandırılır.**

# "Övladlarımı Ramiz Rövşənin şeirləri ilə yatızdırırdım"

*Həmsöhbətimiz şair Sevil Ülvidir.*

**-Sevil xanım, ədəbi mühitdə hər hansı bir aktivliyiniz görünmür.**

-Bəli, heç bir ədəbi mühitdə fəalliyyətim yoxdur. Uzun müddətdir ədəbiyyatla(şeirlə) məşğul olsam da, lakin indiyə qədər yazdıqlarımın işıqlanması, oxunması üçün heç bir çaba göstərməmişəm. Yalnız son illərdə sosial şəbəkələrdə, bəzi saytlarda yazdıqlarımı paylaşmağa başlamışam. Bir çoxumuza görə başarılı olmaq üçün 40 yaş gec qalmış olaraq görülsə də bu düşüncənin yanlış olduğunu düşünürəm. Bu düşüncənin tam əksini bizə isbatlayan nə qədər tanınmış insanlar oldu. Mənim həyatımda da belə oldu, hər şey 40 yaşdan sonra başladı. Və çalışacam ki, yazdıqlarımla oxucuların sevgisini qazanam.

**-Facebookda müşahidə edirəm, sizə olan diqqət elə də pis sayılmaz. Müəyyən sayda oxucularınız var. Amma bu təbii ki, facebookdan o yana getmir.**

-Bəli, doğrudur. Əvvəl poeziya evlərində, məktəblərdə şairlər, yazıçılarla görüşlər keçirilər, bu kimi yollarla oxucuyla münasibətlər qurulardı. Axı hər şey dəyişib. İndi həmin nəsnələr sosial şəbəkələr vasitəsilə həyata keçirilir.

**- Sumqayıtda ədəbi durum necədir. Heç ora da qaynayıb qarışmırsınız.**

- Gənclik illərimdə qızlarla Ə.Kərim adına Poeziya evinə gedərdik. O vaxtlar poeziya evi Sumqayıtda dəniz kənarında yerləşirdi. Şairlərdən İbrahim İlyaslı, Vasif Süleyman, Əli Nəcəfxanlı, Sabir Yusifoğlu, Namiq Dəlidağlı və.s. yazdıqları yeni şeirləri oxuyar biz gənclər də dinləyərdik. Sonralar siyasi fəaliyyətə başladım, demək olar ki, poeziyadan qopdum.

**- Bu zamana kimi nə əcəb kitab çıxarmaq haqqında düşünməmisiniz?**

-Təbii ki,düşünmüşəm. Mən fərqliliyi çox sevirəm. Çox istərdim ki, çıxaracağım kitab da tam fərqli üslubda, dizaynda olsun. İnşallah, pandemiya bitsin , dünya bu virusdan qurtulsun şeirlərimdən və esselərimdən ibarət kitabımın nəşri planımda var. Həm də çox istərdim ki, çıxaracağım kitabla yalnız 40yaş üstü olan oxucuları deyil, həmçinin gənclərin də marağını, zövqünü oxşaya bilim.

**-Keçmişdə jurnalist fəalliyyətiniz olub. Amma ondan da uzaq düşmüsünüz.**

-Bəli, iki ilə yaxın "Millət" qəzetində müxbir kimi çalışmışam. Sonra qəzetin yayınlanması müəyyən səbəblərdən dayandı.

Mən də həmin ərəfələrdə ailə həyatı qurdum. Övladlarım bir az böyüsün sonra işləyərəm derkən, bir də baxdım illər keçmiş...

**-Yanlış edə bilərəm, amma bəzən sizin şeirlərinizdə R.Rövşən havası da hiss edirəm.**



-Ola bilsin ki, bənzətmə R.Rövşənə olan sevgimdən irəli gəlir. Bu sevgim o qədər böyük ki, analar övladlarına laylay deyib yatızdırarkən, mən övladlarımı R.Rövşənin şeirləri ilə yatızdırırdım.

**-Vətən insanın saçını sığallaya bilərmi? Bu sığal necə olur?**

-Xəyal gücü deyək... Bu sığalı yalnız xəyal gücü ilə hiss etmək olar. Vətənə olan sevgi ana-ataya olan sevgimiz qədər təbii və əzəl olmalıdır.

**- Kimin hünəri çatar ki, Yatmış Tanrını oyada?! Bəlkə də dualarımız qeyri-səmimidir deyə Tanrı özünü yatmışlığa vurur?**

-Təbii ki, Tanrı yatmır. Bu bir təxəyyüldür. Mən şeirlərimdə Tanrı ilə söhbət etməyi sevirəm desək...

*Ruhumu göylərə çağıran Tanrı,*
*Ruhum göylərdədir*
*bəs Sən hardasan?..*

Və ya,

*Kimsəsizəm ,tənhayam*
*Tanrı yaxşı ki, varsan.*
*Hərdən bir insan yarat,*
*Bilim ki, hələ sağsan.*

**-"Elə sev ki, sağalmaz yara ol ürəyimdə". Niyə biz sevgini yara, dərd kimi arzulayırıq? Bəlkə bu arzumuzdandır ki, sevgi dərdlərini yaşayırıq. Yəni xoşbəxt sevgidən özümüz -özümüzü məhrum edirik.**

-İnsanın bir yeri ağrıyarkən fikri həmin ağrıda olur, unuda bilmir. Sevgini yara, dərd kimi arzulamağımız, bənzətməyimiz də ondandır yəqin. Sevgi mənim üçün ucalıqdır. Sevgi könül dərmanı, ruhun qidası, yaşamaq istəyidir.

Sevgi - filosofların aforizmlərində, şairlərin şeirlərində, yazıçıların yazdıqları romanlardakı bəzədilmiş, sevgi dolu cümlələrinin gözəlliyi qədərində gözəldir. Bəzən hətta iki sevən könül qovuşduqdan sonra sevgiləri xəyallardakı qədər gözəl olmur. Hər şeyə rəğmən sevgi sizi çağırırsa, onun arxasınca gedin, yolları nə qədər çətin və əzablı olsa belə.

**Söhbətləşdi:**
**Emin Piri**



**”Ədalət”in oxucularının da yaxşı tanıdığı Qarabağ savaşında xidmətləri olmuş, hüquq-mühafizə sahəsindəki fəaliyyəti, ictimai-siyasi həyatdakı yeri ilə tanınmış Akif Səlimov Haqqa qovuşmuşdu.**

**Yazıçı, polis polkovniki, ömrünün son illərində Laçın rayon İcra Hakimiyyətinin başçısı kimi fəaliyyət göstərmiş Akif Səlimovun xatirəsi onu tanıyanların xatirəsində əbədi yaşayacaqdı.**

**Allah rəhmət eləsin!**

# "SƏBRİNİ BAS..."

## Bunu demək nə qədər asandırsa, dostum Nizamiyə təsəlli əvəzi



Aydın TAĞIYEV

**...Anasız Roza bacı çırağını yandırdığı ocaqda ömür-gün yoldaşının vaxtsız atasız-anasız qalmış bacı və qardaşlarına analıq etdi, Nizami isə atalıq. Gəlin baldız və qayınlarına analıq, qardaş isə atalıq edə-edə onları böyütdülər, oxutdular, ev-eşik yiyəsi etdilər. Özləri də oğul-uşaq yiyəsi oldular.**

**Tanrının öz sevdiyi bəndələrini elə bu dünyada ağır sınaqlara çəkdiyinə cavanlıq dostum Nizaminin, orta məktəbdə sinif yoldaşı olduğum Roza xanımın başına gələnlərdən sonra bir daha inandım. Ailənin ilk oğlan övladları elə uşaq yaşlarında qatarın altına düşdü... Salamat qalsa da, şikəst oldu...**

**Ata-ana ailənin ikinci oğlu Həzinin üstündə əsim-əsim əsirdi. Həzi də Güzdəkdə dəmiryolu stansiyasının lap yaxınlığında boya-başa çatırdı. Şabranda dünyaya göz açmışdı, amma şəhərə yaxın bir yerdə böyüyən uşağınki nədənsə torpaq idi, əkib becərmək idi.**

**Və... On doqquz yaşı tamam olmamış o ”uşaq” ilk əvvəl əkib becərəcəyi torpağı qorumaq uğrunda BirinciQarabağ savaşında cəbhəyə yollandı. 1993-cü ilin payızında, oktyabrın əvvəllərində Laçında gedən döyüşlərdə şəhid oldu.**

**Atasının təkidi ilə o vaxtlar hələ qatarların arabir keçdiyi Güzdək dəmir yolu vağzalı ilə üzbəüz kol-kos basmış bir təpədə Həzi üçün qəbir qazdılar. Kənd qəbristanlığı var idi, Həzinin babalarının torpağa tapşırıldığı ata-ana yurdu Şabranda yanlarında boş yerlər də var idi...**

**Lakin şəhid atasının fikri qəti idi. Həzi yüksəkliyi, ucalığı sevərdi,dedi, elə dağlar qoynunda da şəhid oldu.**

**Evləri vağzalın on-on beş addımlığında idi.**

**Evlərinin qonşuluğundan keçən qatarların fit səsini eşidən kimi balaca Həzi də həyətlərindən çıxıb gəlib gedən o qatarların ardınca baxardı...**

**Ata: - Həzi o təpədə torpağa tapşırılsa yəqin ki, gəlib-gedən qatarların da səsini eşidər, - deyə qərarına haqq qazandırdı. Axı, Həzi bir gün o qatarlara minib dünyanı dolaşmaq istəyirdi...**

**Torpaq uğrunda canından keçən, heç on doqquz yaşı tamam olmamış qeyrətli oğulun məzarı o təpədə ilk qəbir oldu.**

**Sonra o boz təpədə Həziyə qonşu bir qəbir də qazıldı. Oğul itkisinə dözə bilməyib qubarlanan Roza xanım da dünyasını vaxtsız dəyişdi. Oğlunu o boz təpədə yalqız buraxmaq ona ağır gəldi. Yenicə eşitdiyim qəfil xəbər, Nizami dostumun az qala pıçıltı ilə, hıçqırıq ilə telefonda mənə verdiyi xəbər qulaqlarımda bomba kimi partladı.Anabalanın o qoşa qəbrinin yanında, demə, dünən bir qəbir də qazılıbmış. Şəhid qardaşının ölümünə inanmayan, anası üçün darıxan Vaqifin qəbri...**

**Vaqif uşaq vaxtı dəmir yolunda qatar altına düşmüşdü. Fiziki şikəstliyi ilə yanaşı qəzanın beynindəbaşında fəsadları qalmışdı. Bəzən uşaq ağlında olardı, ancaq uşaq ağlı ilə çox həyatsevər, şux, nikbin oğlan idi. Yaşı əllini haqlamaqda idi. Yeganə qardaş kimi,Vaqif bacılarının and yeri idi.**

**Yəqin ki, indi bacıların and yeri Vaqifin aman-zaman yadigarı Valehin adı olacaq!**

**Səbrini bas, qardaşım! Valehi ev-eşik yiyəsi et!**

**Ölüm haqdır. Axı, axirət dünyasında xanımın Roza bacı, şəhid balamız Həzi, Vaqif özü səndən ilk əvvəl Cavadovlar soyadının davamçısını soruşacaqlar...**

**24 aprel 2021-ci il**

# "Maaşımı "Neftçi"nin prezidentindən soruşa bilərsiniz"

**"Mən ilk növbədə sadəcə bir insanam. Daha sonra futbolçuyam. İstəyirəm ki, əvvəlcə məni yaxşı insan və ata kimi tanısınlar. Mən müasir futbol haqqında bildiklərimi başqaları ilə paylaşmaq istəyirəm. Xüsusi ilə də biznes tərəfini. Düzdür, hazırda biznesi yox, yaxşı insan olmağı fikirləşirəm".**

Qol.az xəbər verir ki, bu sözləri "Neftçi"nin futbolçusu Keysuke Honda klubun televiziyasında yayımlanan "Həmsöhbət" verilişində deyib.

Bir qoluna Yaponiya vaxtını, digər qoluna da yerli zamanı göstərən saat taxan 35 yaşlı hücumçu bunun səbəbini belə açıqlayıb: "Saatlarımı evdə unutmuşam. Çox təəsüf ki, üstümdə deyil.

Gələn dəfə müsahibə verəndə hər iki saatımı gətirəcəyəm. Təbii ki, zarafat edirəm. Bu, mənim üslubumdur. Mən dəbi sevirəm. Xüsusilə də saatlar çox xoşuma gəlir".

Oyunçu Bakı klubuna keçidi haqqında növbəti dəfə danışıb: "Pandemiyanın başlanmasından sonra klub tapmaq həqiqətən də çətin məsələ oldu. Mən özümə uyğun komanda tapa bilmirdim.

O vaxt həmçinin bir neçə liqada transfer pəncərəsi artıq bağlanmışdı. Bəzi çempionatlarda isə transfer pəncərəsi açıq idi.

Mən də bu variantlardan birini seçməli idim. Yaponiyaya qayıtmaq istəmirdim. Gənc olanda orada 3 il oynamışdım. Mən yeni çağırış gözləyirdim. "Neftçi"ni seçdim. Burada çempion olmaq üçün şansım var. Bu imkan məni həyəcanlandırır. "Neftçi"dən



təklif gəldi, mən də fikirləşib, qəbul etmək qərarını verdim. Xoşbəxtəm ki, buradayam. Ağ-qara rənglərdən xoşum gəlir. Burada sırf pula görə oynamıram.

Sadəcə, karyeramı davam etdirirəm. Fəxr edirəm ki, böyük klubda oynayıram. "Neftçi"nin prezidentindən maaşımı soruşa bilərsiniz".

# "Görünür, meydana gəlməyin vaxtıdır..."

*Gənc şair Sevinc Məmməd Adalet.az saytına müsahibə verib.*

**- Sevinc xanım, imzanız ədəbi mühitdə tanınmır. Mətbuata verdiyiniz ilk müsahibədir. Sizi bu gündən belə niyə tanımalıyıq, niyə oxumalıyıq? Siz özünüzü necə tanıdardınız?**

- Ədəbi mühitdən uzaq bir həyatım var, heç vaxt da marağım olmayıb. Yanlız qıraqdan izləyirəm, sosial şəbəkələrdən də nadir hallarda istifadə edirəm. Özümə qapanıq, assosial bir həyatım var.

Oxuyuram, yazıram, yemək yeyirəm, gəzirəm, yenə oxuyuram, yenə eyni şeylər. Mənim monoton həyatım bundan ibarətdir. Ömrüm beləcə vərəq-vərəq, misra-misra var-gəl etməklə keçir. Özümü tanıtmaq isə istəməzdim. Belə bir istəyim olsa, onsuz da indiyə qədər tanınardım. Bu ölkədə və bu adamlar arasında tanınmağa nə var ki?!

**- Onda belə çıxır ki, özünüz üçün yazırsınız ancaq?**

- Xeyir, belə çıxmır, özünüzdən söz çıxartmayın.

**- Axı, sizi heç kim tanımır, şeirləriniz yayımlanmayıb, heç kim oxumayıb...**

- Siz müsahibə götürürsünüz də, elə burda da yayımlayın, tanısınlar.

**- Hansı şeirinizi verə bilərəm məsələn?**

- "Təkliyin simfoniyası"

*Üzümü tutmuşam göylərə sarı*
*Quşlara baxıram, quşlar da təkdi*
*Buluda baxıram, bulud da təkdi*
*Günəş də təkdi göyün üzündə,*
*Ay da təkdi o göy üzündə*

*Allaha məxsusdur deyirlər təklik..*
*Bircə yağış tək deyil amma*



*Bərabər paylanmasa da,*
*Bərabər islanmaq olur...*

*Eybi yox,*
*Günəş də tək ola bilər*
*Ay da tək çıxar göyün üzündə*
*Bəlkə də islanmarıq yağış yağanda*
*Quşlar da təkliyə son verər tamam*
*Bəs Allah, o niyə təkdi?*
*Bizdən apardığı adamlar hanı?!*

*Atası yox, anası yox*
*Oğlu da, qızı da yoxdu.*
*- İsa?!*
*O da çarmıxda təkdi!*

**- Başqa hansı?**

-Başqası qalsın başqa vaxta. Elə tək şeirlə də tanımaq olar. Həm də, yaradıcılıq gecəm deyil ki. Hələ məni insan kimi tanısınlar, sonra şair kimi tanıyarlar.

**- Müasir Azərbaycan ədəbiyyatından kimləri izləyirsiniz, bəyənirsinizmi?**

- Sosial şəbəkələrdə elə də çox yox, amma kitablarını alıb oxuyuram, açığı, əlim üzümdə qalır. Bu qədər mənasız şair-yazarlar nəyə lazımdır axı? Bəyəndiklərim çox azdı, həm də məni təəccübləndirmək çətin məsələdir. Bəyəndiklərimin adını da reklam olmasın deyə çəkmirəm indi. Çünki burda hələ məni tanımağa çalışırıq, Zaurun verilişi deyiləm ki, araya reklam kimi kimlərisə qatım.

**- Bir şeir kitabınız var..**

- Bir deyil, ikidir. Mən kitabları satış məqsədli çıxartmamışam deyə, tiraj da azdır. Daha çox şeirlərin itib batmamağı üçündür hələki. Amma görünür, meydana gəlməyin vaxtıdır. Kitabımın birinin adı "Şeirlandiya", birinin də " Təkliyin simfoniyasıdır"

... Olar mən özümə sual verim?

**- Necə yəni?**

- Yəni, növbəti sualı mən verim, cavab verim həm də. Müsahibənin formatını dəyişək bir az.Adi müsahibələri oxuyanda çox sıxılıram. Heç olmasa, öz müsahibəmdə rahat olum...

**- Aha, buyurun.**

"- Sevinc, niyə müsahibə verirsən ki?

- Bilmirəm. Jurnalist israr etdi, o da şeir yazıb deyə vaxtı ilə razı oldum. Ömründə bir misra da yazmış adama ən azı bir bənd hörmətim var.

**- Aha buyurun, davam edək. Bəsdi. Elə bunu demək istəyirdim.**

**- Qəribədir, qəribəsiniz...**

- Yox, əslində. Qəribə olan siz və sizlərsiniz ki, ən adi fərqliliyi qəribəlik hesab edirsiniz.

**- Sevinc xanım, şablon bir sual verim. Ədəbiyyat, şeir sizin üçün nədir?**

- Mən ədəbiyyat müəllimiyəm. İlk növbədə mənim üçün işdir. Ondan əvvəlki növbədə isə ədəbiyyat bir həyat tərzidir. Lap ondan əvvəlki növbədə isə bu suala cavab vermək mümkün deyil. Yəni, konkret olaraq desən ki, ədəbiyyat, şeir budur, deməli, saxtakarsan, özündən uydurursan. Kim bilə bilər ki, şeir nədir? Əgər şeirin nə olduğunu tərifini bilirsənsə, onu niyə yazırsan? Burda ancaq özünəxas nələrsə deyə bilərsən. Ədəbiyyat da, şeir də mən özüməm və.s kimi. Sıradan, şablon cavablar. Elə şablon suala da şablon cavablar verərlər.

**- Təkcə şeirmi yazırsınız?**

- Yox, hekayələr də yazıram. Yaxın zamanlarda çap edəcəyim və səs salacağını düşündüyüm romanım da var. Əlavə olaraq nağıllar yazıram. Həm böyüklər üçün, həm də uşaqlar üçün. Yavaş-yavaş hamısı üzə çıxacaq. Əslində, səs salacaq roman olduğunu desəm də, səs salmağın həqiqətən istəmirəm. Ümumiyyətlə, şair olaraq da, yazıçı olaraq da kütləviləşmək fikrim, istəyim yoxdur. Düşünürəm ki, belə olsa, çox sıxılaram, tükənərəm, nə bilim, birdən Allah eləməsin, yaza bilmərəm. Necə olacaq onda axırım? Mən yaza bilməsəm, ölmək nədi, gəbərərəm.

**- Bizə son olaraq özünüzü ifadə edəcək nələrsə deyin?**

- Özümü ifadə eləmək üçün deyə biləcəyim şeylər sizin də, başqalarının da nəbzini durdura bilər. İçimi bura töksəm, bərabər toplaya biləcəyim heç kim yoxdur. Amma ruh halımı ifadə edə biləcək bir cümlə deyə bilərəm;

- Bir gün baş qaldıracaq külqabımdakı boynu bükük siqaretlər,

Bir gün adamlar da geri qayıdacaq boynu bükük..

**- Müsahibə üçün təşəkkür edirik.**

- Elə mən də. Buyurun.

**Söhbətləşdi;**
**Orxan Saffari**

## *Şevçenko: "Bu oyuna görə gecələr qışqırıb oyanırdım"*



**"Milan"ın əfsanəvi futbolçusu, hazırda Ukrayna millisinin baş məşqçisi olan Andrey Şevçenko 2005-ci ildə Çempionlar Liqasının finalında "Liverpul"a penaltilər seriyasında uduzmalarını xatırlayıb.**

**Qol.az xəbər verir ki, 44 yaşlı mütəxəssis İstanbulda keçirilən matç haqqında deyib:**

**"Bu yara hələ də qanayır. İnsanların bizim coşquya qapıldığımızı deməsi məni narahat edir. Paulo Maldini fasilə zamanı diqqətli olun deyərək bizə xəbərdarlıq etmişdi. Həmin oyundan sonra ilk aylarda bu matçı düşünüb, gecələr qışqıraraq yuxudan oyanırdım".**

**Xatırladaq ki, həmin görüşdə "Milan" ilk hissədə 3:0 hesabı ilə qalib gəlmişdi.**

**Lakin "Liverpul" ikinci hissədə geri dönüş edərək 3 qol vurub və hesab bərabərləşib. Bundan sonra "mersisaydlılar" rəqibini penaltilər seriyasında üstələyib.**

## *AFFA-dan azarkeşlərlə bağlı Operativ Qərargaha müraciət*




**AFFA Azərbaycan Kubokunun final oyununa azarkeşlərin buraxılması xahişi ilə Nazirlər Kabineti yanında Operativ qərargaha müraciət edib.**

Bu barədə Peşəkar Futbol Liqasının (PFL) prezidenti Ramin Musayev məlumat verib. O, müraciətdə azarkeş sayı ilə bağlı konkret rəqəm göstərmədiklərini bildirib: "Say deməmişik.

Yazmışıq ki, nə qədər mümkündürsə, o qədər tamaşaçının buraxılması üçün imkan daxilində kömək edin. Müsbət cavab gələcəyini gözləyirik".

Qeyd edək ki, mayın 24-də "Bank Respublika Arena"da keçiriləcək Azərbaycan Kubokunun final oyununda "Keşlə" və "Sumqayıt" komandaları üz-üzə gələcək (Report).

Cinatov Rüstəm Qeysəddin oğlunun adı verilmiş Abşeron rayon Gənclər şəhərciyi 63cü blok, ev 38də yerləşən evin Müqaviləsi itdiyi üçün etibarsız sayılır.

***

Astara rayon, Astara Şəhər Bələdiyyəsinə 15.11.2013-cü ildə 12 saylı qərarı ilə verilmiş Fərdi yaşayış evi tikmək üçün torpaq sahəsinin plan və ölçüsü (AN№489495) itdiyi üçün etibarsız sayılsın.

Aqil Abbas Xalq şairi
**Fikrət Qocanın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Aqil Abbas və Əbülfət Mədətoğlu dostları
**Akif Səlimovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu Xalq şairi
**Fikrət Qocanın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu Füzuli rayon Ağsaqqallar Şurasının sədri **Zülfüqar Əliyevə** qardaşı
**Məmməd müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 93
Çapa imzalanmışdır: 05.05.2021